# QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 152 (6352) 26 avqust 2021-ci il **Qiymәti 40 qәpik**

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Azərbaycan bölgədə sülh və sabitliyin təminatçısıdır!



Bax 2

## Mehriban Əliyeva - zəriflik, əzmkarlıq, kübarlıq və vətənpərvərlik mücəssəməsi

*Tarix boyu hər bir ölkənin, xalqın qadınında özünəməxsus obraz formalaşıb. Ancaq Azərbaycan qadınında olan analıq, kübarlıq və alicənablıq, həmçinin mübarizlik amili bənzərsizdir.*



Bax 8

## “Davamlı İnkişaf Məktəbi” layihəsi çərçivəsində seminar keçirilib

Bax 7



## Ermənistan parlamentinin növbəti böhranı

Bax 11



## Öz xalqının gələcəyinə güllə atan ermənilər



Bax 13

## “Ermənistan işğalçılıq siyasətindən, təxribatlarından geri çəkilməyib”



Bax 14

“Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəmizə yeni təyin olunmuş BMT-nin yeni rezident əlaqələndiricisini...

## Toyda kimə, niyə və necə toy tutulur?

*Toylarımızda ifrat süfrə menyusu insanların bəhsə-bəhs yerinə, öz imkanlarını başqalarına nümayiş etdirmə məkanına çevrilib Xalqımızın qədim adət-ənənələri arasında toylar özünəməxsus yer tutur. Milli toylarımızın özüməxsus...*



Bax 15

## Xankəndidə güclü partlayışlar baş verir: Ermənilər qorxu və vahimə içindədir!




## Rus politoloq: “Erməni elitası sülhə hazır deyil, qisas hissi ilə yaşayır”



Bax 3

44 günlük müharibə başa çatdıqdan sonra Ermənistanın siyasətini dəyişəcəyi və nəqliyyat dəhlizlərinin həyata keçirilməsi, sərhədin demarkasiyası və delimitasiyası, imzalanması baxımından bölgədəki vəziyyətin...

## DSX: ”Bu təxribata adekvat cavab veriləcək”

Avqustun 25-də saat 15:45 radələrində Gorus-Qafan yolunun Qubadlı rayonunun Aşağı Cibikli kəndi yaxınlığından keçən hissəsi istiqamətində yerləşən Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının ”Qubadlı” əlahiddə sərhəd diviziyasının sərhəd-döyüş məntəqəsinin ərazisində xidmətdə olan əsgər Şirəliyev Ruslan Nəriman oğlu Ermənistan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusunun qəfil hücumuna məruz qalıb, əlbəyaxa döyüş zamanı sinə nahiyəsindən süngü bıçaqla xəsarət alıb.

Bu barədə Dövlət Sərhəd Xidmətinin yaydığı məlumatda bildirilib.

Məlumata görə, digər sərhəd naryadlarının köməyə gəldiyini görən Ermənistan hərbçiləri ərazinin sıx meşəlik olmasından istifadə edərək geri qaçıblar: ”Əsgər R.Şirəliyev təcili olaraq Dövlət Sərhəd Xidmətinin hərbi hospitalına təxliyə edilib, hazırda həyatı üçün təhlükə yoxdur. Baş vermiş hadisəyə görə bütün məsuliyyət Ermənistan tərəfinin üzərinə düşür və bu təxribata adekvat cavab veriləcək”.



## Həm hərb meydanında, həm də informasiya savaşında Qalib Lider



Bax 12

## Qərbin Azərbaycandakı qəribə müxalifəti



Bax 14

## “Qalatasaray” 22 yaşlı futbolçu transfer etdi!




Bax 16

*Bəli, 2020-ci il 10 noyabr üçtərəfli bəyanatla Azərbaycan Prezidenti İlham Əliyev yenə də diktə edən tərəfdir. Azərbaycan Prezidenti haqlı olaraq dəfələrlə bəyan edir ki, mövcud durumda situasiyanı Azərbaycan müəyyənləşdirir. İndi şərtləri cənab İlham Əliyev diktə edir: Paşinyan rejiminə güzəşt yoxdur. İllərdir sülh istəyən, humanist siyasət aparan Azərbaycanla artıq kimsə diktə dili ilə danışa bilməz. Çünki Azərbaycan hər zaman sülhün tərəfdarı olduğunu dünyaya bəyan edib. Ermənistan isə status-kvonun saxlanması üçün müxtəlif bəhanələr gətirib danışıqlar masasına oturmurdu. İndi Paşinyan danışıq aparmaq üçün açıq-aşkar yalvarır. Ancaq Azərbaycan Prezidenti onunla nəinki bir masada oturmaq, heç danışıq aparmaq belə istəmir. Çünki danışıqlara Paşinyanın "Qarabağ Ermənistanındır" sərsəm fikrindən sonra xitam verilib.*



# Azərbaycan bölgədə sülh və sabitliyin təminatçısıdır!

## *İlham Əliyev: "Bu gün Azərbaycan öz fəaliyyəti ilə bölgənin gələcək inkişafına töhfə verir"*

Təhlil

Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutmuş Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin Moskva görüşü nəticəsində 10 oktyabr 2020-ci il tarixi saat 12.00-dan etibarən humanitar atəşkəsə riayət olunması razılığının əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılığı kobud şəkildə pozmaqla bir daha riyakarlığını nümayiş etdirdisə, Azərbaycan dövləti də haqq yolunda, Vətən yolunda mübarizə apardığını, erməni hiyləsinin, riyakarlığını, normal dövlət ola bilməməsini bir daha dünyaya nümayiş etdirdi. Bununla bir daha sübut olundu ki, humanitar məqsədə xidmət edən atəşkəslə yanaşı, ehtiyat tədbirləri də paralel aparılmalıdır. Artıq atəşkəs danışıqlarında, digər ikitərəfli, çoxtərəfli platformalarda şərtləri məhz Azərbaycan müəyyən edir. Bu, o deməkdir ki, Azərbaycana qarşı hər hansı şərtlərin irəli sürülməsindən söhbət gedə bilməz və atəşkəs istəyən tərəf beynəlxalq hüquq normalarına əməl etməlidir. Bu sadə gerçəkliyi artıq hamı başa düşməlidir. Paşinyan başa düşməlidir ki, monoetnik Ermənistandan fərqli olaraq, multikultural dəyərlərə, tolerantlığa və hər bir xalqın milli-mədəni irsinə hörmət prinsiplərinə sadiqdir. Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşadan regiona və dünyaya etdiyi çağırışları bir daha onu sübut edir ki, Azərbaycan Prezidenti rəhbəri olduğu ölkə bölgənin təhlükəsizliyi, sabitliyi və inkişafı üçün sülhə hazır olmaqla bərabər, həm də sülhün təminatçısı kimi çıxış etmək iqtidarındadır. 2021-ci il iyunun 15-də imzalanan Şuşa Bəyannaməsi bunun təsdiqidir.

### Şuşa Bəyannaməsi - Bölgədə sülhün təminatçısı və regionun yeni geosiyasi reallığını rəsmiləşdirən tarixi Zəfər

Bəli, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında 2021-ci il iyunun 15-də Şuşada imzalanmış Bəyannamə, həm də tarixi Zəfər Bəyannaməsi olmaqla, eyni zamanda ikitərəfli münasibətlərin keyfiyyətcə yeni inkişaf mərhələsini rəsmiləşdirən strateji təşəbbüs oldu. Digər uğurlu addım Türkiyə Respublikasının Şuşada baş konsulluğun açılması ilə Azərbaycanın Qarabağ bölgəsi üçün yeni imkanlar açır. Bu imkanlar həm Şuşaya qayıdacaq şuşalılar, həm ətraf rayonların sakinləri, həm də Qarabağda yaşayan ermənilər üçün firavan gələcək vəd edir. Şuşa Bəyannaməsinin imzalanması tarixi hadisə olmaqla, həm də Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə (siyasi, iqtisadi, ideoloji, humanitar) davamlı inkişafını təmin edir. Eyni zamanda, Bəyannamə müttəfiqliyin geostrateji əhəmiyyətini artırır.

Belə olan halda, ermənilər anlamalıdırlar ki, sülh onların yeganə çıxış yoludur. Bu gün mövcud şəraitdə Ermənistan ciddi miqrasiya problemləri yaşayır. Demoqrafik böhran yaşayan ölkə həm də işçi qüvvəsi, istehsal qüvvəsi, müdafiə qüvvəsi çatışmazlığı ilə üzləşəcək. Deməli, erməni toplumu savaş yox, sülh imkanları axtaracaq. İqtisadi amillər yeni münasibətlərin formalaşmasına səbəb olacaq. Bu isə o deməkdir ki, bir neçə ildən sonra Şuşa ilə Xankəndinin inkişaf səviyyəsində ciddi fərqlər aydın görünəcək. Ən əsası isə, bu tarixi sənədlər qardaşlıq münasibətlərini və strateji tərəfdaşlığı rəsmiləşdirdi. Şuşa Bəyannaməsi 13 oktyabr 1921-ci il tarixində imzalanmış Qars müqaviləsinə iki dost və qardaş ölkənin sadiqliyinin təcəssümüdür. Şuşa Bəyannaməsi 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"nin və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"un, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"nin davamıdır. Bir sözlə, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələri xalqlarımızın birliyini milli-mənəvi dəyərlər müstəvisində təmin edir. İki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlər siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsinə şərait yaradır. Bu əməkdaşlıq Qafqazın inkişafını təmin etməklə yanaşı, həm də regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi əməkdaşlığın strateji istiqamətlərindən biridir.Lakin buna baxmayaraq, hazırda dünyada elə qüvvələr var ki, regionumuzda sülh və təhlükəzisliyin bərqərar olmağında maraqlı deyil. Revanşist dairələr tərəfindən, "Dağlıq Qarabağın statusu tam olaraq müəyyənləşmədən bu müharibə heç vaxt bitməz",- kimi absurd iddialar səsləndirilir. Amma unudurlar ki, münaqişə məsələsi, başqa sözlə, Azərbaycanın haqq mübarizəsi 44 günlük Vətən müharibəsində həllini tapıb, Ermənistanın uzun bir dövr ərzində işğal altında saxladığı ərazilər güc yolu ilə azad edilib, ölkəmiz özünün beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü və suverenliyini gerçəkləşdirib, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamələrini öz gücünə yerinə yetirib.

### Revanşistlər nəticə çıxarmasalar, dəmir yumruq işə düşəcək

Bəli, dövlət başçısı İlham Əliyevin Kəlbəcərə və Laçına səfəri zamanı Ermənistanın son təxribatlarına ən tutarlı cavabı yaddaqalandır. "Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir", - deyən dövlət başçısı səfər zamanı vacib bəyanatlar verməklə bir daha dövlət başçısı Ömər aşırımının ən hündür yerindən ölkəyə müraciət etdi: "Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm". Kəlbəcərə müharibədən sonra ilk dəfə səfər etdiyini, bu bölgənin yenidən bərpa olunub qurulacağını bəyan edən dövlət başçısı ölkə mətbuatına da səsləndi: "1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunun adını dəyişdirərək ona "Vardenis" adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı hazırlanan reportajlarda və ümumiyyətlə, bizim ümumi leksikonumuzda "Vardenis" yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır".

Dövlət başçısı onu da bildirib ki, müharibə artıq 9 aydır qurtarıb: "Bu müddətdə Azərbaycanın atdığı bütün addımlar sülhə, iqtisadi dirçəlişə və işğal edilmiş ərazilərdə iqtisadiyyatın dirçəlməsinə yönəlib. İşğalçı Ermənistan isə faşizmin quluna çevrildiyini anlamadan revanş siyasətindən əl çəkmir. Paşinyan danışıqlara hazır olduğunu bəyan edir, amma elə bu bəyanatda 30 il erməni vandallığını dilə gətirməyən Minsk qrupundan təkliflər gözlədiyini bildirir. Bütün sərhədlərimiz boyu məğlub və məhv edilən erməni ordusu təxribatlar törədir, qatil və cani Sarkisyan Rusiya sülhməramlılarının nəzarəti altındakı Azərbaycan ərazilərində peyda olaraq sərsəm bəyanatlar səsləndirir".

### Şərtləri qaliblər diktə edir

Bəli, bu gün şərtləri qaliblər diktə edir. Çünki güclü ideyanı müdafiə edən xalq güclü olduğu kimi, güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bu gün müstəqil Azərbaycanı güclü edən, onu sabitlik məkanına çevirən əsas amil də məhz xalqımızın ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir. Məhz elə buna görədir ki, 18 il əvvəl "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" məramı ilə Prezident İlham Əliyevin həyatı xalqına və Vətəninə həsr olunmuş əsl lider ömrüdür. Və bu gün Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan Liderdir. Məhz bu gün Qalib Sərkərdə, Prezident İlham Əliyev nə vaxt, nəyi, necə etmək lazımdır, bunu bilir, çünki şərtləri qaliblər diktə edir. Bu gün qazanılan qələbələr Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin milli maraqlarımıza söykənən müstəqil siyasətinin, beynəlxalq arenada yüksək nüfuzunun, Güclü Ordumuzun, rəşadətli əsgərlərimizin və xalqın birliyinin məntiqi nəticəsidir.

Bəli, Azərbaycan Prezidentinin Kəlbəcər və Laçına səfəri isə bütün bunlara ən tutarlı cavabdır

Bəli, dövlətimizin başçısı Kəlbəcər və Laçına səfəri ilə bütün bunlara ən tutarlı cavab verməklə yanaşı, Azərbaycanın sülhün, dostluğun tərəfdarı olduğunu dünyaya bir daha nümayiş etdirdi. Prezident İlham Əliyev "CNN Türk" Televiziyasına müsahibəsində dünya ictimaiyyətinə, eləcə də Qarabağda fəaliyyət göstərən Rusiya sülhməramlı qüvvələri də daxil olmaqla, ermənilərə kifayət qədər açıq mesajlar verdi. Dövlət başçısı bu günə qədər verdiyi bütün müsahibələrində olduğu kimi, budəfəki müsahibəsində də ermənilərin 30 ilə yaxın apardığı işğalçı siyasətindən və işğal zamanı törətdikləri vəhşiliklərdən danışıb. Dövlətimizin başçısı, eyni zamanda, şanlı Qələbəmizdən sonra bu bölgədə hazırda mövcud vəziyyəti dünya ictimaiyyətinin diqqətinə çatdırıb.

Prezident İlham Əliyev dəfələrlə çıxışlarında Azərbaycanın bölgədə ölkələr arasında kommunikasiya xətlərinin üzərində yerləşdiyini və bu istiqamətdə böyük işlərin görüldüyünü xatırladaraq, Qarabağın uzunmüddətli inkişafı, burada sabitliyin möhkəmləndirilməsi və müharibə risklərinin sıfra endirilməsi üçün nəqliyyat layihələrinin xüsusi rolunu xatırladıb, eyni zamanda, bu layihələrin icrasına qoşulacaq bütün ölkələrin bundan ancaq xeyir götürəcəyini, faydalanacağını vurğulayıb: "Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər...".

Bir sözlə, bütün bunlar Azərbaycanın dünyaya nə qədər sülhsevər ölkə olduğu bir daha nümayiş etdirir. Beləliklə, Azərbaycan bölgədə davamlı sülh və sabitliyin yaranması üçün təkcə təşəbbüslə çıxış etmir, eyni zamanda, bu məsələdə öz əməli töhfəsini verir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplomatik siyasətinin reallığıdır.

**RƏFİQƏ HÜSEYNOVA**



# Vətən Müharibəsi Qəhrəmanlarına və onların ailə üzvlərinə göstərilən yüksək dövlət qayğısı davam edir

Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" yeni Sərəncamı həmin kateqoriyadan olan şəxslərə dövlət başçısı tərəfindən daha yüksək qayğının təzahürüdür. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, Sərəncama əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə və ölümündən sonra həmin ad verilmiş şəxslərin ailə üzvlərini mənzillə təmin edəcək.

"Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında" 26 noyabr 2020-ci il tarixli Qanununa əsasən, "Vətən Müharibəsi Qəhrəmanı" adı Azərbaycan Respublikasının ən ali fərqlənmə dərəcəsi kimi müəyyən olunub.

Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Silahlı Qüvvələrimizin bir qrup hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib.

Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiklərinə görə "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslər, habelə ölümündən sonra həmin ad verilmiş şəxslərin ailə üzvləri xüsusi diqqət və qayğı ilə əhatə olunublar. Dövlət başçısının 30 dekabr 2020-ci il tarixli Fərmanına əsasən Vətən Müharibəsi Qəhrəmanlarına (ölümündən sonra bu ad verildikdə və ya həmin ad verilmiş şəxs sonradan vəfat etdikdə, həmin şəxsin ailə üzvlərinə) dövlət qayğısını artırmaq məqsədilə onlar üçün Prezidentin təqaüdü təsis edilib. Təqaüdün aylıq məbləği 2 min manat müəyyən olunub.

Şəhidlərimizin ailə üzvlərinin, müharibə qazilərinin çevik və genişmiqyaslı sosial dəstək paketi ilə əhatə olunması dövlətimizin sosial siyasətinin prioritetlərindən biridir. Dəstək istiqamətlərindən biri kimi, şəhid ailələrinin, müharibə əlillərinin mənzillə və fərdi evlə təminatı sahəsində mühüm addımlar atılır. Ötən dövrdə 10 min 500 şəhid ailəsi və müharibə əlilli mənzil və fərdi evlə təmin edilib. 2021-ci ildə də 3 minədək mənzil və fərdi evin bu kateqoriyalardan olan vətəndaşlara verilməsi nəzərdə tutulub ki, onlardan artıq 1300 mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim edilib.

Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin mənzillə təmin edilməsi barədə yeni Sərəncamla həmin kateqoriyadan olan vətəndaşlar da dövlətin mənzillə təminat proqramına daxil edilir və bu proqramın əhatə dairəsi daha da genişlənir.

# Rus politoloq: "Erməni elitası sülhə hazır deyil, qisas hissi ilə yaşayır"

44 günlük müharibə başa çatdıqdan sonra Ermənistanın siyasətini dəyişəcəyi və nəqliyyat dəhlizlərinin həyata keçirilməsi, sərhədin demarkasiyası və delimitasiyası, imzalanması baxımından bölgədəki vəziyyətin nizamlanmasına gedəcəyi ilə bağlı əsaslı gözləntilər var idi. Azərbaycanla bu müqavilələr bölgədə yekun sülhə səbəb olacaq. Ancaq bu, baş vermədi və aydındır ki, hələ də baş vermir. Bu, Ermənistanın siyasi elitasının İrəvanın üçtərəfli bəyanat çərçivəsində götürdüyü məsələləri həll etməkdən və öhdəliklərini yerinə yetirməkdən çəkinməsi, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin yanvar 2021-ci il görüşündə əldə edilmiş razılaşmalarla birbaşa bağlıdır.

SİA xəbər verir ki, rusiyalı ekspert, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko "Caliber" analitik mərkəzinə açıqlamasında belə deyib. Onun sözlərinə görə, Zəngəzur nəqliyyat dəhlizinin yaradılması ilə bağlı gözləntilər hələ də yalnız gözlənti olaraq qalır: "Ermənistan normal rejimdə sərhədlərin delimitasiyası və demarkasiyasına başlamaq əvəzinə, müxtəlif istiqamətlərdə Azərbaycan mövqelərinin gündəlik atəşə tutulması ilə silahlı təxribatlar təşkil edir. Bu onu göstərir ki, indiyədək İrəvanda hakim elitalar nə sülh yolu ilə nizamlanmağa, nə də dinc bir həyata hazır deyillər. Əvvəllər olduğu kimi, Azərbaycanın Qarabağ bölgəsi ərazisində mövcud olan separatçı varlığı siyasi yollarla yenidən canlandırmaq və qisas almaq fikri ilə yaşayırlar. Bunlar reallıqlardır. Ermənistan sülhə hazır deyil. Məğlubiyyət şoku tədricən yox olur, təcavüz meyli yenidən ortaya çıxır, separatizm və millətçiliyin bütün izləri görünür. Ona görə də bu gün Ermənistanın davranış modelini dəyişmə şansı praktiki olaraq sıfıra bərabərdir. Ona görə də, real siyasət nöqteyi-nəzərindən hərəkət edilməlidir".

Korotçenko qeyd edib ki, üçtərəfli bəyanat çərçivəsində bütün öhdəliklərin yerinə yetirilməsi Rusiyanın xeyrinədir. Ancaq Moskvanın Paşinyana təsir göstərə biləcəyini və ona mövcud reallıqları izah edə biləcəyini söyləmək çətindir. Ermənistanın qeyri -konstruktiv davranışı bu gün bölgədəki vəziyyətin daha da inkişafı üçün çox təhlükəli proqnozlar verən bir reallıqdır.



"Azərbaycan indiki vəziyyətdə nəyə nail olmaq istəyir? Birincisi, gələcəkdə Ermənistanın təcavüzkar hərəkətlərinin müəyyən variantlarını istisna edəcək aydın sərhəddir. İrəvan gələcəkdə Azərbaycana heç bir ərazi iddiası irəli sürə bilməzdi. Əslində, Azərbaycanın Ermənistana qarşı heç bir aqressiv planı yoxdur. Aydın bir sərhəd xətti qurulduqdan sonra, öz inkişafını daha da artırmaq və irəliləmək üçün Azərbaycan Ermənistanı məmnuniyyətlə unudar. Azərbaycanın əsas məqsədi budur. Rusiya sərhədlərin delimitasiyası və demarkasiyası prosesini dəstəkləyir və Rusiya Xarici İşlər Nazirliyi vasitəçilik etməyi təklif etdi. Azərbaycan bu təklifi qəbul etdi.

Erməni tərəfdən nə görürük? Sərhədlərin delimitasiyası ilə bağlı praktiki məsələyə girməmək üçün Azərbaycan mövqelərinin atəşə tutulmasının kəskinləşməsi. Bu, Ermənistanın bütün siyasətidir.

Zəngəzur nəqliyyat dəhlizinə gəldikdə, deyə bilərəm ki, bu, təkcə Azərbaycan, Türkiyə və regionun digər ölkələri üçün deyil, Ermənistanın özü üçün, hamı üçün çox vacibdir. Ancaq erməni elitaları təəssüf ki, bu layihədə özləri üçün mənfi nəticələr görürlər. Bu səbəbdən də bu layihəni həyata keçirmək istəmirlər. Bu qeyri-konstruktiv mövqe erməni elitasının bir sıra səbəblərə görə müasir reallıqları tanımaq istəməməsi, Azərbaycanla yaxşı münasibətlər qurmaq istəməməsi ilə bağlıdır. İrəvan, Azərbaycanın ərazi bütövlüyünün tanınması və başqa ölkələrin ərazisində ikinci erməni dövlətləri yaratmağa çalışan qüvvələrin ümidlərinin puça çıxması demək olduğuna əsaslanaraq sülh müqaviləsi imzalamaq istəmir"- Korotçenko bildirib.

*Tərcümə - Elçin Bayramlı*

# İndoneziya saytları Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində itkin düşənlər barədə yazırlar

*Azərbaycanın İndoneziyadakı səfirliyinin təşəbbüsü ilə 30 avqust Beynəlxalq Məcburi Yoxaçıxma Qurbanları (itkin düşmüş şəxslər) Günü münasibətilə kütləvi-informasiya vasitələrində yerli dildə məqalələr yayılıb.*













AZƏRTAC xəbər verir ki, "kempalan.com", "jakartatoday.co.id", "gpriority.com.id" və "wartapenanews.com" saytlarında ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, həmin torpaqların ələ keçirilməsi məqsədilə aparılan hərbi əməliyyatlar nəticəsində çoxsaylı yerli sakinin itkin düşməsi barədə ətraflı məlumatlar əksini tapıb.

Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN) Gənclər Təşkilatının hökumətlə əlaqələr şöbəsinin rəhbəri Annisa Fadillahın və "JakartaToday" onlayn xəbər portalının müxbiri Putra Pumamanın ayrı-ayrılıqda müəllifi olduqları məqalələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslər barədə məlum faktlara əsaslanan məqamlar, bu istiqamətdə Azərbaycan tərəfindən atılan addımlar, habelə ermənilərin Xocalıda azərbaycanlılara qarşı törətdiyi soyqırımına dair faktlar yer alıb.

Məqalələrdə mövzu ilə bağlı fotolara da geniş yer verilib. Sözügedən məqalələrin tam mətni ilə aşağıdakı linklər vasitəsilə tanış olmaq olar:

https://kempalan.com/2021/08/23/penduduk-azerbaijan-yang-hilang-dan-disandera/

https://www.jakartatoday.co.id/berita/detail/ratusan-warga-masih-hilang-sejak-invasi-armenia-ke-azerbaizan-tahun-1990-lalu

https://www.jakartatoday.co.id/berita/detail/azerbaizan-tuding-armenia-tak-terbuka-terhadap-tahanan-perang

https://gpriority.co.id/penghilangan-paksa-dan-penyanderaan-warga-azerbaijan-oleh-armenia/

https://wartapenanews.com/penduduk-azerbaijan-yang-hilang-dan-disandera/



*Şəmsəddin Hacıyev*
*YAP Səbail rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən, iqtisad elmləri doktoru, professor*

# Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycan xalqının mənafeyinə xidmət edir

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavini, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan xalqının milli maraqlarına və ümumbəşəri dəyərlərə əsaslanan genişmiqyaslı və çoxşaxəli fəaliyyəti bütün xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır və nümunə kimi göstərilir. Birinci vitse-prezident kimi fəaliyyəti dövründə Mehriban xanım Əliyeva qısa müddətdə özünün peşəkarlığı, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxışı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni səhifəsini açmış, təcrübəli siyasətçi, yüksək idarəetmə və təşkilatçılıq məharətinə malik olan səriştəli idarəedici kimi cəmiyyətimizdə qadınların rolunun artmasına səbəb olmuşdur.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ali dəyərlərə söykənən, Azərbaycan xalqı və dövlətinin maraqlarını əks etdirən fəaliyyətindən bəhs edərkən, ilk növbədə, Onun rəhbərlik etdiyi Azərbaycanın böyük humanitar və xeyriyyəçilik təşkilatı olan Heydər Əliyev Fondunun ölkəmizin inkişafına verdiyi töhfələrə, sərgilədiyi çoxşaxəli fəaliyyətə diqqət yetirmək lazımdır. Təbii ki, bu Fondun əsas məqsədləri görkəmli dövlət xadimi, müasir müstəqil Azərbaycanın qurucusu və Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək, eləcə də Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etməkdir. Əminliklə deyə bilərik ki, Heydər Əliyev Fondu fəaliyyəti müddətində bu vəzifələrin öhdəsindən layiqincə gəlmiş və Mehribanın xanımın bilavasitə təşəbbüsü və rəhbərliyi ilə gözəl işlərə imza atmışdır. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycanda elm və təhsilin inkişafı ilə bağlı "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı, "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək" kimi bir çox önəmli layihə və proqramlara start verilmiş, Qarabağ həqiqətlərinin bütün dünyaya çatdırılması və Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində mühüm işlər görülmüşdür. Uğurla həyata keçirilmiş bu layihələr sırasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində ölkəmizdə üç mindən çox yeni məktəb tikilmiş və ya əsaslı şəkildə təmir olunmuşdur. Müasir tipli məktəblərin inşası, tədris prosesində normal şəraitin yaradılması, təhsilin keyfiyyətinin yaxşılaşdırılması son illər ərzində Azərbaycan təhsilinin beynəlxalq təhsil məkanına inteqrasiyasını gücləndirmişdir.

Mehriban xanım Əliyeva ölkəmizin müstəqilliyinin ilk dövrlərindən etibarən milli mədəniyyətimizin qorunması və inkişafı istiqamətində geniş fəaliyyət göstərir. Mehriban xanım Əliyevanın mədəniyyətə və incəsənətə göstərdiyi qayğı ilə əlaqədar fəaliyyətinin böyük bir hissəsi Heydər Əliyev Fondu ilə bağlıdır. Fond mütəmadi olaraq xarici ölkələrdə Azərbaycan mədəniyyətinin təbliği istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirir. Azərbaycan xalqının milli sərvəti olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Mehriban xanım Əliyevanın təşəbbüsü nəticəsində mümkün olmuşdur. Mehriban xanım Əliyeva Azərbaycanın maddi və qeyri-maddi irsinin, Qarabağ mədəniyyətinin, Azərbaycan xalqının yaratmış olduğu ənənə və dəyərlərin, milli mətbəxtimizin dünyada tanıdılması üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirmişdir. Azərbaycan xalqının yaratmış olduğu mədəni abidələr dünya irs siyahılarına daxil edilərək qorunma altına alınmışdır. Fransada, İtaliyada, Rusiyada və başqa ölkələrdə keçirilən çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, görməyə başlamışdır.

Bununla yanaşı, Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası, Luvr Muzeyinin bərpası, İkinci Dünya müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsrinin bərpası, Romanın Villa Borgeze parkında Nizami Gəncəvinin abidəsinin ucaldılması, Vatikanda Roma katakombalarının bərpası, Moskvada M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasında Azərbaycanın görkəmli yazıçısı, filosofu və humanisti və ziyalısı Mirzə Fətəli Axundzadənin abidəsinin ucaldılması, Parisdə Azərbaycan Mədəniyyəti Mərkəzinin yaradılması, Romada Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmiri və digər ümumbəşəri layihələr icra edilmişdir.

Mehriban xanım Əliyeva həm Milli Məclisin deputatı, həm də respublikamızın Birinci vitse-prezidenti kimi fəaliyyəti dövründə cəmiyyətimizdə son dərəcə həssas, problemli məsələlərin həlli, o cümlədən elm, təhsil, səhiyyə, mədəniyyət, idman, gənclər siyasəti, ailə, qaçqın və məcburi köçkünlərin sosial təminat problemləri kimi mühüm əhəmiyyət kəsb edən sosial məsələlərlə məşğul olmuşdur. Ötən dövr ərzində ölkəmizdə bu sahələrdə müstəsna uğurlar və nəticələr əldə edilmişdir. Bu barədə yüzlərlə misallar göstərmək olar.

Mehriban xanım cəmiyyətimizdə daima mərhəmət, insanpərvərlik, qayğı kimi hisslərin təbliğatçısı olmuşdur. 2007, 2009, 2013, 2016-cı illərdə dəfələrlə məhz Onun təşəbbüsü ilə Milli Məclisdə 10 minlərlə məhbusa şamil olunan genişmiqyaslı amnistiya aktları qəbul olunmuş, bu qərarlar əsasında ümumilikdə 39 min 887 məhkum cəzadan azad edilmişdir.

Ölkəmizdə xüsusi həssas əhali qrupları ilə işləmək, onların problemlərinin həllinə dəstək olmaq Mehriban xanım Əliyevanın fəaliyyət sahəsinin mühüm istiqamətlərindən birini təşkil edir. Bu işdə gündəlik sosial ehtiyacların qarşılanması, insanların sağlamlığının qorunması, xəstələrə, kimsəsizlərə, ahıllara və ehtiyacı olan digər insanlara qayğı və nəvaziş ən vacib missiya kimi həyata keçirilməkdədir. Mehriban xanım Əliyeva daim xüsusi qayğıya ehtiyacı olan uşaqları diqqətdə saxlayır, xüsusən də valideyn qayğısından məhrum olan, xəstə uşaqların əsl himayəçisi kimi fəaliyyət göstərir. Mehriban xanım olan yerdə haqq-ədalət, mərhəmət, humanizm, həssaslıq, insanlara diqqət, qayğı və digər bu kimi yüksək dəyərlər bərqərar olunur və milli-mənəvi dəyərlərə, adət və ənənələrimizə, müstəqilliyimizə, dövlətçiliyimizə sədaqət nümunəsi göstərilir.

Təbii ki, Mehriban xanımın bütün bu genişmiqyaslı milli və ümumbəşəri fəaliyyəti Azərbaycan vətəndaşları və bütövlükdə dünya ictimaiyyəti tərəfindən lazımınca qiymətləndirir və dünya səviyyəsində təqdir edilir. Azərbaycanın birinci xanımı bir çox beynəlxalq mükafatlara layiq görülüb. Xeyirxahlıq, mərhəmət, insanpərvərlik nümunəsi olan Mehriban xanım Əliyevanın ölkə daxilində həyata keçirdiyi humanitar missiyası dövlətimiz tərəfindən yüksək dəyərləndirilmiş və Mehriban xanım Azərbaycanın ən ali dövlət mükafatlarına - "Heydər Əliyev" ordeninə və Heydər Əliyev Mükafatına layiq görülmüşdür. Xarici ölkələrin ali dövlət mükafatları sırasında xüsusi olaraq qeyd etmək olar: Fransanın "Şərəf Legionu", Rusiyanın "Dostluq", İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri, Vatikanın IX Piy Ordeninin Böyük Xaçı, Rus Pravoslav Kilsəsinin II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordenləri, UNESCO-nun "Qızıl Motsart" medalı, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Qızıl medalı, Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qızıl medalı, Küveyt Dövlətinin Fəxri diplomu, Ümumdünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin mükafatı, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı.

Mehriban xanım Əliyevanın UNESCO-nun Xoşməramlı səfiri və ölkəmizin Birinci vitse-prezidenti kimi 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Azərbaycanda keçirilməsinə təşəbbüs göstərməsi və buna nail olması tarixi hadisədir.

Xüsusi olaraq vurğulanmalıdır ki, Mehriban xanım Əliyeva hər zaman Vətən uğrunda canından keçən qəhrəmanlarımızın ailələrinə, doğma torpaqlarından məcburi köçkün düşmüş vətəndaşlarımıza xüsusi qayğı ilə yanaşıb, onların sosial problemlərinin həllinə diqqət göstərib və ümumiyyətlə, cəmiyyətin diqqətini bu məsələlərə cəlb edib. Eyni zamanda, erməni işğalçıları ilə döyüşlərdə yaralanmış və əlil olmuş hərbiçilərimizə və mülki şəxslərə maddi-mənəvi dəstək, onların müalicəsi və sağlamlığının bərpasına lazımi diqqət də Mehriban xanım Əliyevanın humanizm fəaliyyətinin əsasını təşkil edir. Müharibə əlillərinin əksəriyyəti Birinci vitse-prezidentin köməyi ilə dünyanın nüfuzlu xəstəxanalarında müalicə olunub və bugün də bu işlər davam etməkdədir.

Azərbaycan xalqı, böyük Türk dünyası və bütün dünya Azərbaycanın 44 günlük Vətən müharibəsindəki parlaq qələbəsindən sonra misilsiz tarixi hadisələrə, ölkəmizdə gedən möhtəşəm milli dirçəliş dövrünə, bir millətin, xalqın öz tarixi, mədəniyyəti ilə birlikdə ata-baba torpaqlarına addım-addım Böyük Qayıdışına şahidlik edir. Prezident, Azərbaycan Silahlı Qüvvələrinin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun, əsgər və zabitlərimizin şücaəti, mərdliyi, mətanəti, fədakarlığı, ən əsası isə ürəklərindəki müqəddəs Vətən sevgisi və qələbə ruhu nəticəsində 44 günlük Vətən müharibəsi Azərbaycanın parlaq Qarabağ Zəfəri, düşmən tapdağı altında olan Vətən torpaqlarının işğaldan azad olunması, ərazi bütövlüyümüzün, dövlət sərhədlərimizin bərpası ilə nəticələndi.

Müharibə bitdikdən sonra Ali Baş Komandanımızın ailə üzvləri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birlikdə işğaldan azad olunmuş bölgələrə səfərləri, bu səfərlər zamanı İlham Əliyevin, Mehriban xanımın səmimi dialoqları, sözlərində, gözlərində, jest və hərəkətlərində olan sevinc, qürur hər bir azərbaycanlının yaddaşına Böyük Qayıdışın rəzmi kimi əbədi həkk olundu, Lider-xalq birliyini daha da möhkəmləndirdi və sarsılmaz etdi. İşğaldan azad olunan Füzuli, Ağdam, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın rayonlarına və bu səfərlərin kuliminasiya nöqtəsi olan Şuşa şəhərinə səfərlər zamanı Ali Baş Komandanımızın və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hər bir müsəlman üçün əziz və müqəddəs olan dini məbədlərimizə, daha doğrusu işğalçı erməni vandallarının simasını və İslam dininə olan düşmənçiliyinin nümunəsi olan dağıdılmış məscidlərimizə, ibadətgahlarımıza ziyarətləri xüsusi qeyd olunmalıdır. Azərbaycanın viran qoyulmuş torpaqlarına səfərləri zamanı yolboyu törədilmiş vəhşilik, barbarlıq, vandalizm nümunələrini, dağıdılmış kəndlərin, evlərin canlı kadrlarını dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların diqqətinə təqdim edən Ali Baş Komandanımız erməni vəhşiliyini və onların işğalçı, faşist xislətini bir daha ifşa etdi. Erməni vandalları tərəfindən viran qoyulmuş Azərbaycan torpaqlarında bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi, Heydər Əliyev Fondunun iştirakı ilə möhtəşəm yenidənqurma, bərpa, tikinti-quruculuq işləri aparılır və ən müasir tələblərə cavab verən infrastruktur yaradılır. Çox qısa zamanda işğaldan azad olunan ata-baba yurdlarımızda xalqımızın tarixi, mədəni, dini irsi ən yüksək səviyyədə, milli ruhumuza uyğun bərpa olunacaq və o torpaqlar əsl cənnət məkanına çevriləcəkdir.

Xalqımız haqlı olaraq Prezidentmiz, Ali Baş Komandanımız İlham Əliyevlə və ölkə başçısının ən yaxın və etibarlı silahdaşı, qayğıkeş ana, xeyriyyəçi, yüksək idarəçilik mədəniyyətinə malik rəhbər və cəmiyyətimizdə xüsusi yanaşma tələb edən ən həssas məsələləri yüksək diqqət və qayğı ilə həll edən dövlət xadimi kimi böyük məhəbbət və rəğbət qazanan Birinci vitse-prezident Mehriban xanımla, güclü, müstəqil, məğrur və qüdrətli Azərbaycan dövlətimizlə fəxr edir. Mehriban xanım Əliyevanın Azərbaycan xalqının və dövlətinin mənafeyinə xidmət edən genişmiqyaslı və çoxşaxəli fəaliyyəti bizim üçün ikiqat fərəhlidir. Çünki Mehriban xanım Əliyeva həm Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavinidir, həm də Səbail rayonunda partiya qeydiyyatındadır. Biz Mehriban xanım Əliyevaya möhkəm cansağlığı, şərəfli və məsuliyyətli işində daha böyük uğurlar arzu edirik. Əminik ki, Mehriban xanımın çoxşaxəli və genişmiqyaslı fəaliyyəti bundan sonra da Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, xalqımızın rifahının yüksəldilməsinə misilsiz töhfələr verəcəkdir.

ŞƏRH

# Mərhəmət, humanizm, dövlətə və xalqa xidmət nümunəsi




***Azərbaycanın Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İCESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti özündə bu dəyərləri birləşdirir***



### Heydər Əliyev Fondu: Ümummilli Liderin zəngin ənənələrinin davamçısı

Şərqlə Qərbin qovuşağında yerləşən Azərbaycan dövlətlər, xalqlar arasında körpü rolunu oynayır, həyata keçirdiyi layihələri, irəli sürdüyü təşəbbüsləri ilə bu körpünün daha da möhkəmlənməsinə töhfələr verir. Hər bir dövləti,



*Vüqar Rəhimzadə,*
*"İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist*

xalqı dünyada tanıdan siyasəti ilə yanaşı, zəngin tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri və dilidir.

Azərbaycanın Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İCESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətindən bəhs edərkən dünyada sülhün qorunmasına, sivilizasiyalararası dialoqa töhfələri xüsusi qeyd olunmalıdır. Məhz Mehriban xanımın təşəbbüsü sayəsində UNESCO və İCESCO-nun dəstəyi ilə 2008-ci ildə Bakıda keçirilən ”Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi” beynəlxalq forumu ümumbəşəri mədəniyyətə, sülhün və əmin-amanlığın bərpa olunmasına hesablanmış ən böyük addım olmuşdur. Ölkəmizdə bilavasitə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ”Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü”, ”Gənclər sivilizasiyaların alyansı naminə” mövzusunda beynəlxalq konfranslar, ”Dünya gənclərinin 4-cü məşğulluq sammiti”, BMT-nin Dövlət Xidmətləri Forumu, habelə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu kimi qlobal tədbirlər reallaşdırılmışdır.

Qeyd etdiyimiz kimi, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması Mehriban xanım Əliyevanın fəaliyyətində əsas yerlərdən birini tutur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin ənənələrinin davamçısı olan Heydər Əliyev Fondu genişmiqyaslı fəaliyyəti ilə məhz Azərbaycanın yüksək dəyərlərini, humanizm prinsiplərini beynəlxalq aləmə təqdimində əvəzsiz rola malikdir. Heydər Əliyev Fondunun loqosuna diqqət yetirməklə məqsəd və məram özünü aydın şəkildə ifadə edir. Göy və qızılı rənglər qurumun fəaliyyətinin təqdimatıdır. Səmanı, demokratiyanı, dincliyi, etibarlılığı, səmimiliyi, əminliyi ifadə edən göy rəng həm də milliliyin göstəricisidir. Qızılı rəng isə Günəş, sülh, inkişaf, işıqlı gələcək simvolu deməkdir. Hər iki rəng ümummilli lider Heydər Əliyevin istək və arzularının ifadəçisidir. Hər zaman Azərbaycanı sabit, inkişaf, tərəqqi yolunda görmək istəyən ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövrünə diqqət yetirdikdə bu günümüz üçün gördüyü işlərin miqyasının nə qədər böyük olduğunu görürük.

1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasət nəticəsində Azərbaycan qısa müddətdə dahi şəxsiyyətin ən böyük arzusu olaraq dünyaya günəş kimi doğdu. Müstəqilliyimizin ilk illərində Azərbaycanın ətrafında yaradılan informasiya blokadasının yarılmasını qarşıya mühüm məqsəd kimi qoyan Ümummilli Liderin gərgin səyləri nəticəsində Azərbaycan həqiqətləri dünyaya çatdırıldı. Mehriban xanım Əliyeva bildirir ki, Heydər Əliyevin həyatı böyük bir epoxanın aynası kimi ölkəmizin sevincli-kədərli günlərini və anlarını, Azərbaycanın bu tarix yollarını özündə əks etdirir. Məhz Heydər Əliyevin həyatı və fəaliyyəti sübut etdi ki, əlçatmaz xəyalların və arzuların reallaşması insan fenomeninin gücünə mümkündür. Heydər Əliyev qalibiyyətinin nəticəsi müasir müstəqil Azərbaycan Respublikası və onun bugünkü nailiyyətləridir.



Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İCESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva böyük və çoxşaxəli fəaliyyəti ilə bir-birindən fərqli layihələrin müəllifi olaraq saysız insanların mənəvi dostuna çevrilib. Həyata keçirdiyi layihə və proqramların əsas istiqamətlərini təhsil, mədəniyyət, səhiyyə, idman və sosial sahələr təşkil edir. Heydər Əliyev Fondu uğurlu layihələrin müəllifi olaraq, yüksək səviyyəli konfranslarda, festivallarda iştirak edib, eyni zamanda, belə miqyaslı tədbirlərə ev sahibliyi edib. Fond qayğıya ehtiyacı olanlara kömək göstərmək, milli-əxlaqi dəyərləri qorumaq, həmçinin dünya ictimaiyyətinin diqqətini Azərbaycan həqiqətlərinə cəlb etmək üçün fəaliyyətində qətiyyətlidir, israrlıdır. Bu fəaliyyət humanizm meyarına söykənir.

Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin, milli-mənəvi dəyərlərimizin, həqiqətlərimizin təbliği istiqamətində həyata keçirdiyi layihələri, əldə olunan nəticələri bir yazıda əhatə etmək mümkünsüzdür. Onun muğam sənətinin qorunub saxlanılması və təbliği istiqamətində gördüyü işlər ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır, dünya miqyasında yüksək dəyərləndirilir. Bu gün tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə təbliğat xarakterli tədbirlərinin, müxtəlif dillərdə çap etdirdiyi kitabların, vəsaitlərin rolunu xüsusi qeyd etməliyik. Heydər Əliyev Fondunun vitse-prezidenti, həqiqətlərimizin ən fəal gənc təbliğatçısı kimi tanınan Leyla Əliyevanın ”Xocalıya ədalət” kampaniyası çərçivəsində gördüyü işlərin uğurlu nəticələri göz önündədir.

### Mehriban xanım Əliyevanın məqsədi, amalı Azərbaycanı beynəlxalq aləmdə zəngin mədəni irsə, mənəvi dəyərlərə malik ölkə olduğunu təqdim etməkdir

Təbii ki, hər bir xalqın varlığı, milli kimliyi ilk növbədə milli-mənəvi dəyərlərində ehtiva olunur. Heydər Əliyev Fondunun fəaliyyətində tariximizə, milli-mənəvi dəyərlərimizə, ədəbiyyatımıza, elmə, musiqimizə verilən dəyərdən qaynaqlanan addımların uğurlu nəticələrini Azərbaycanımızın bugünkü reallıqlarında görürük. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Azərbaycan 2019-cu ildə UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etdi. Bu mühüm hadisə Azərbaycanın milli-mənəvi dəyərlərimizin, tarixi-mədəni irsimizin qorunması və təbliği, eyni zamanda beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək olmaq istiqamətində atdığı addımlara, malik olduğu təcrübəyə bir daha işıq saldı. Bu uğurumuz, eyni zamanda, Azərbaycan-UNESCO əməkdaşlığının hazırkı səviyyəsinin göstəricisi oldu. UNESCO ilə Azərbaycan arasındakı əlaqələr Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2004-cü ildə qurumun xoşməramlı səfiri seçiləndən sonra daha sürətlə inkişaf etməyə başlamışdır. Onun davamlı və ardıcıl səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer alıb. Muğamın, aşıq sənətinin, Novruz bayramının, İçərişəhərin, tar ifaçılığı sənətinin UNESCO-nun nadir, şah əsərləri sırasına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında əməkdaşlığın davamlılığını diqqətə çatdırır. Onu da qeyd edək ki, UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi qurumun Ümumdünya İrs Siyahısına daxil edildi.

### Xalqın rifahına və dövlətin inkişafına böyük dəstək

Vətənə, dövlətə sədaqət, milli dəyərlərə hörmət və uğurlu fəaliyyət Mehriban xanım Əliyevanın ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillərdir. Dövlətimizin başçısı İlham Əliyev Mehriban xanım Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdim edərkən bu kimi mühüm məqamları xüsusi vurğulayaraq bildirmişdir: ”Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda, qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır”.

Dövlətimizin başçısı İlham Əliyevin bu etimadını yüksək dəyərləndirən Mehriban xanım Əliyeva ”Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam” bildirmişdir.

2017-ci ilin fevralından ötən 4 ildən artıq dövrə nəzər salsaq Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu məsuliyyətli və şərəfli vəzifənin də öhdəsindən ləyaqətlə gəldiyini böyük qürur və fəxr hissi ilə qeyd edə bilərik.

***Ardı Səh. 6***

# Mərhəmət, humanizm, dövlətə və xalqa xidmət nümunəsi





Əvvəli-Səh-5

Birinci vitse-prezident kimi ilk müşavirəsini artıq tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin problemlərinə həsr edən Mehriban Əliyeva daim əhalinin bu həssas təbəqəsinin yanında olur, onları narahat edən məsələləri birbaşa öz dillərindən dinləyir. Hər zaman da bu əminlik ifadə edilirdi ki, yaradılan bu şərait müvəqqəti xarakter daşıyır. Tezliklə münaqişə öz həllini tapacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar.

Bu gün həmin istəyin, arzunun reallığa çevrildiyinin sevincini yaşayırıq. Soydaşlarımız "artıq biz qaçqın deyilik" söyləyərək Böyük Qayıdışı gözləyirlər. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə hər səfərləri, burada görülən bərpa və quruculuq işləri ilə yaxından tanış olmaları, yeni obyektlərin təməlqoyma mərasimlərində iştirak etmələri və sair kimi biri-birindən mühüm addımlar tarixə çevrilir. Artıq işğaldan azad olunmuş tarixi torpaqlarımız əsl cənnət məkana çevrilir.

Ölkəmizdə vitse-prezidentlik institutunun yaradılması idarəçilik sistemində təkmilləşməyə, qarşıya qoyulan hədəflərə yüksək səviyyədə və zamanında nail olmağa xidmət edir. Bu baxımdan Mehriban xanım Əliyevanın hər zaman olduğu kimi, Azərbaycanın Birinci vitse-prezidenti kimi daxili siyasət sahəsində əsas fəaliyyət istiqamətləri dövlət idarəetməsində çevikliyin təmin olunması istiqamətində fəaliyyətin təşkili; ölkə əhalisinin bərabər, əlçatan və keyfiyyətli təhsillə təminatı; sağlamlığının qorunması; sosial baxımdan daha həssas əhali qruplarının (şəhid ailələri, qazilər, məcburi köçkünlər, ahıllar, kimsəsizlər, irsi qan xəstəliyindən və digər irsi xəstəliklərdən əziyyət çəkən şəxslər və s.) problemlərinin həlli; Azərbaycan xalqının yaratdığı milli mədəniyyət və incəsənət nümunələrinin, ənənələrin öyrənilməsi, bərpası, onların yerli və dünya mədəni irsi kimi qorunması, dünyada tanıdılması işləri; ölkədə idman hərəkatının davamlılığının təmin olunması; ekoloji problemlərin həllinə dəstək göstərilməsi; böhran zamanı effektiv idarəetmə, pandemiya zamanı əhalinin ehtiyaclarının qarşılanması və tibbi, sosial dəstək layihələrinin reallaşdırılması; hazırkı dövrdə işğaldan azad olunan torpaqların bərpasında humanitar missiyanın həyata keçirilməsidir. Çoxşaxəli fəaliyyətin özündə ehtiva etdiyi və daim dəyişməz qəbul olunan prinsip isə məsuliyyətdir. Mehriban xanım Əliyevanın müsahibələrində qeyd etdiyi kimi, məsuliyyətin və yerinə yetirilən vəzifənin böyüklüyü, kiçikliyi yoxdur. Yalnız xalqa, dövlətə xidmət istəyi, insanları sevindirəcək, imkansızlara yardım, humanistlik və xeyirxahlıq duyğuları vardır.

### Dahi şəxsiyyətin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası uğurlarımızın bələdçisidir

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətindən bəhs edərkən ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, son 18 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən Yeni Azərbaycan Partiyasının yeni hədəflərə doğru inamla irəliləməsinə töhfələrini də qeyd etməliyik. Zəfərimizin yaratdığı reallıqlara uyğun olaraq Yeni Azərbaycan Partiyası bu il martın 5-də VII qurultayını keçirdi. Qurultay yeni qərarlarla, struktur dəyişikliklərlə, yeni tərkibin formalaşması ilə tarixə yazıldı. Mehriban xanım Əliyevanın YAP Sədrinin birinci müavini vəzifəsinə təyin edilməsi hədəflərə yüksək səviyyədə nail olmağa geniş imkanlar yaradır. Bütün fəaliyyəti ilə uğurlara imza atan Mehriban xanım Əliyevanın amalı, fədakarlığı, ictimai- siyasi mövqeyi hər kəs üçün nümunədir, örnəkdir. Mehriban xanım Əliyeva qarşıya qoyduğu məqsədə doğru daim inamla addımlayır və məsuliyyətin uğurların davamlılığında əsas rol oynadığını təsdiqləyir.

### Ən çətin anlarda xalqın yanında olmaq

Artıq iki ilə yaxındır ki, dünya, o cümlədən ölkəmiz COVID-19 pandemiyası ilə mübarizə aparır. Pandemiya səbəbindən ölkəmizdə yaşanan böhran zamanı Mehriban xanım Əliyevanın peşəkarlığı sayəsində idarəetmədə güc birliyi təmin olunmuşdur. Onun tapşırığına əsasən Heydər Əliyev Fondu tərəfindən pandemiya dövründə ailələrin sosial ehtiyaclarının qarşılanması, onların ərzaq və tibbi ləvazimatlarla təminatı həyata keçirildi. Bakı və regionlardakı körpələr və uşaq evləri, internat məktəbləri, Uşaq Psixonevroloji Mərkəzi, bütün sosial xidmət müəssisələri, o cümlədən pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsi belə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiyaedici vasitələrlə, maskalar, digər qoruyucu vasitələr və zəruri ehtiyaclarla mütəmadi təmin edildi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın koronavirus infeksiyası ilə bağlı xalqa bütün müraciətlərində COVID-19 kimi qorxulu hekayənin başa çatacağına inam ifadə edilməklə yanaşı, buna əsas verən əminlik də diqqətə çatdırılırdı: "Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik. Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram!".

### Dünyaya səs salan tarixi Zəfərimiz və hədəflər

Azərbaycan 30 ilin işğalına son qoydu, ərazi bütövlüyümüz bərpa edildi. Tarixi Zəfərimiz ölkəmizin qarşısında yeni reallıqlar yaratdı. Dövlət başçısı İlham Əliyevin ən yaxın silahdaşı olaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın son 9 ayda dəfələrlə işğaldan azad edilmiş ərazilərimizə səfərləri bu sevincin xalqımızla bölüşmək istəklərini nümayiş etdirir. Prezident İlham Əliyevin hər vədini konkret əməli ilə təsdiqləməklə yanaşı, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirməsindən keçirdiyi xoşbəxtlik hissi hər bir çıxışında, xalqa müraciətlərində xüsusi yer alır. Bu gün Mehriban xanım Əliyevanın Azərbaycanın bütün sahələrdə inkişafı, dünyada mədəniyyət carçısı, sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlıq məkanı kimi təqdim etməsi istiqamətində atdığı addımlar ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müzəffər liderliyini uğurla tamamlayır. Mehriban xanım Əliyevanın 44 günlük İkinci Qarabağ müharibəsinin başlandığı ilk gündən yeganə arzusu bu oldu: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!".

Mehriban xanım eyni zamanda, bildirirdi ki, Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

### Mədəniyyətimizin paytaxtına qayıdışın möhtəşəm nümayişi - "Xarıbülbül" musiqi festivalı

Qeyd etdiyimiz kimi, Qarabağımız əzəli sahibinə qayıtdı. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə may ayının 12-13-də Şuşa, Cıdır düzü 28 ildən sonra yenidən "Xarıbülbül" musiqi festivalına ev sahibliyi etdi. Azərbaycan bütün dünyaya Şuşadan, qədim torpağımızdan mesaj ünvanladı. Bu, sülh, mədəniyyət, birgəyaşayış, tolerantlıq, milli birlik, həmrəylik mesajı oldu. Festivalın ilk günü ölkəmizdə yaşayan xalqların mədəni zənginliyinin nümayişi - "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda proqram da bunun ifadəsi oldu. Dövlət başçısı İlham Əliyev festivaldakı nitqində bildirmişdir: "Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək. Builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır... Bir daha biz bütün dünyaya buradan - Şuşadan, qədim torpağımızdan mesaj veririk. Ölkələr belə inkişaf etmirdi, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur".

Şuşa artıq hər gün qonaqlarını qarşılayır, müxtəlif tədbirlərə, əhəmiyyətli sənədlərin imzalanmasına şahidlik edir. Şuşa Bəyannaməsi birliyimizin, həmrəyliyimizin zirvəsi kimi dəyərləndirilir. Mədəniyyət paytaxtımız Şuşa illərdir həsrətində olduğu doğma musiqimizə qovuşmaqla 28 il əsarətdə qalsa da əyilmədiyini, Azərbaycan xalqının milli ruhunu qoruduğunu bir daha təsdiqlədi. "Xarıbülbül" musiqi festivalının keçirildiyi tarix "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" söyləyən ulu öndər Heydər Əliyevin ruhunun şad, arzularının həyata keçdiyi gün oldu. Heydər Əliyev Fondu belə möhtəşəm, tarixi əhəmiyyət kəsb edən tədbirə təşkilatçılığı ilə Heydər Əliyev siyasətinin növbəti təntənəsi kimi dəyərləndirilən tarixi Zəfərimizi bir daha dünyaya təqdim etdi. Azərbaycanı qarşıda daha möhtəşəm uğurlar gözləyir.

Azərbaycanın Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İCESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı doğum günü münasibətilə "İki sahil"in kollektivi adından ürəkdən təbrik edir, Ona möhkəm cansağlığı, Azərbaycanın davamlı inkişafının, xalqın yüksək rifahının təmin edilməsi istiqamətində atdığı addımlarda, humanist təşəbbüslərinin gerçəkləşdirilməsində daha möhtəşəm uğurlar diləyirik.

Doğum gününüz mübarək!

Tanrı Sizi qorusun Mehriban xanım!

# “Bu gün YAP Azərbaycan cəmiyyətinin həyatında həlledici rol oynayır”

## YAP Hacıqabul rayon təşkilatının XI hesabat konfransı keçirilib




***Avqustun 25-də Yeni Azərbaycan Partiyası Hacıqabul rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib. S?A-nın verdiyi məlumata görə, əvvəlcə müstəqil Azərbaycan dövlətinin memarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***





Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Hacıqabul rayon təşkilatının sədri Hafis Bəşirovun hesabat məruzəsi dinlənilib. O qeyd edib ki, bu gün YAP Azərbaycan cəmiyyətinin həm siyasi, həm iqtisadi, həm sosial, həm də mədəni həyatında uğurlu layihələrlə həlledici rol oynayır. Qələbələr partiyası olan YAP zəngin və şərəfli inkişaf yoluna malikdir.



H.Bəşirov bildirib ki, YAP Hacıqabul rayon təşkilatının 98 ərazi ilk partiya təşkilatında 5377 üzv var. Onların 2279 nəfərini qadınlar,1186 nəfərini isə gənclər təşkil edir. X konfransdan ötən dövr ərzində 603 nəfər partiya sıralarına qəbul olunub ki, onlardan 239 nəfəri qadın, 388 nəfəri gənclərdir. Sonra YAP Hacıqabul rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Elman Nəcəfov hesabat məruzəsi ilə çıxış edib.

Müzakirələr zamanı çıxış edən Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov, Milli Məclisin deputatı Rafael Hüseynov, YAP Hacıqabul rayon təşkilatının Şura və İdarə Heyətinin üzvləri - Gənclər Birliyinin sədr müavini Saleh Ələskərov və Elnur Əmiraslanov, YAP Hacıqabul rayon təşkilatının 8 saylı məktəb ərazi ilk partiya təşkilatının sədri Xuraman Talıbova hesabat dövründə görülən işlərdən bəhs ediblər.





Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası ötən illər ərzində böyük inkişaf yolu keçib. Vurğulayıb ki, bütün çətinliklərdən uğurla çıxan Yeni Azərbaycan Partiyasını qarşıdakı illərdə daha möhtəşəm uğur və nailiyyətlər gözləyir. Ə.Tağıyev qeyd edib ki, YAP öz Proqramını daim yeniləyir və populist vədlərdən uzaq olduğunu davamlı uğurları ilə təsdiqləyir. Yeni Azərbaycan Partiyasının güc mənbəyi yaradıcısı olduğu ümummilli lider Heydər Əliyevin zəngin irsi və son 18 ildə bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin təkmil islahatları, gələcəyə daha böyük inamla addımlamağa əsas verən inkişaf strategiyamızdır.





Yeni mərhələdə partiyanın yerli təşkilatlarının üzərinə düşən vəzifələrdən geniş bəhs edən Ə.Tağıyev YAP Hacıqabul rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb. Konfransda YAP Hacıqabul rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# “Davamlı İnkişaf Məktəbi” layihəsi çərçivəsində seminar keçirilib











Avqustun 25-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Gənclər Birliyinin "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində "Dövlət təhlükəsizliyi və korrupsiya ilə mübarizə elementləri" mövzusunda seminar keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbiri açan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov seminarda iştirak edən gəncləri salamlayıb, layihənin gənclər üçün əhəmiyyətindən, həmçinin mövzunun aktuallığından bəhs edib.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov "Davamlı İnkişaf Məktəbi" layihəsi çərçivəsində keçirilən seminarları yüksək dəyərləndirərək, belə layihələrin gənclərin inkişafında mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. Bildirib ki, korrupsiyaya qarşı mübarizə Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindəndir. Qeyd edib ki, 2002 və 2004-cü ildə Azərbaycan dövləti BMT-nin "Korrupsiya Əleyhinə" Konvensiyası, daha sonra Avropa Şurasının "Korrupsiya Əleyhinə" kovensiyalarını ratifikasiya edib. Bununla yanaşı, BMT-nin 2004-cü il tarixli "Korrupsiya Əleyhinə" Konvensiyasının 36-cı maddəsinin hər bir iştirakçı dövlətin öz hüquq sisteminin əsas prinsiplərinə uyğun olaraq korrupsiya ilə mübarizə aparmaq üçün ixtisaslaşmış orqanların mövcudluğunun təmin edilməsi barədə öhdəliyinin icrası qaydasında Azərbaycan Respublikası Prezidentinin 2004-cü ilin 3 mart tarixli "Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Sərəncamı əsasında Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya yaradılıb.

K.Cəfərov deyib ki, sonrakı mərhələdə ölkəmizdə beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində mühüm qanunvericilik bazası yaradılıb, açıq hökumətin təşviqi sahəsində Dövlət proqramları, milli strategiyalar və fəaliyyət planları həyata keçirilib. Milli Məclisin deputatı bildirib ki, 2004-2006 illəri əhatə edən "Korrupsiyaya qarşı mübarizə" üzrə Dövlət Proqramı, 2007-2011-ci illərdə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və Milli Fəaliyyət Planı, 2012-2015-ci illərdə "Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planı" təsdiq edilib və icra olunub. Bundan başqa, ölkəmizdə Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın uğurlu icrası bu istiqamətdə mühüm nailiyyətlərin əldə olunmasına yol açıb. K.Cəfərov vurğulayıb ki, hazırda "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı" icra edilir. Bundan başqa, elektron hökumətin tətbiqi, ASAN Xidmətin yaradılması da ölkəmizdə korrupsiyanın qarşısının alınması istiqamətindəki mübarizə tədbirləri çərçivəsində əldə edilmiş mühüm nailiyyətlərdəndir.

Sonda tədbir iştirakçılarının çoxsaylı suallları cavablandırılıb.



# Mehriban ə...
# əzmkarlı...
# vətənpərvər...





*Tarix boyu hər bir ölkənin, xalqın qadınında özünəməxsus obraz formalaşıb. Ancaq Azərbaycan qadınında olan analıq, kübarlıq və alicənablıq, həmçinin mübarizlik amili bənzərsizdir.*

*Bəhruz QULİYEV, "SƏS" qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru*

Hətta deyərdim ki, Azərbaycan qadını bütün dövrlərdə yazdığı öz möhtəşəmlik salnaməsi ilə dəyəri ölçülməyən cavahirat və müqəddəs mücəssəmədir. Belə ki, bütün tarixlərimizdə bizim örnək kimi qəbul etdiyimiz qadınlarımız olub və indi də vardır. Məhz bu baxımdan, çağdaş zamanımızda ölkəmizin birinci xanımı, Azərbaycan Respublikasının birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva özünün həm ictimai-siyasi, həm humanitar fəaliyyəti, həm də elmi yaradıcılığı ilə dünya qadınlarına bir nümunədir, etalondur. O da əbəs deyil ki, Mehriban xanım müasir Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin tərəqqisi, inkişafı naminə kifayət qədər geniş fəaliyyət göstərir, bu işlərinin həyata keçirilməsi istiqamətində əzm, qətiyyət göstərir və müasir dünyanın qadın siyasətində novatorluq tendensiyalarını nümayiş etdirir.

## Onun Azərbaycan qadınının ailədəki rolu və ailəyə münasibəti, əsl milli-dəyərlər kontekstini əks etdirən mükəmməl fikirlərində təsdiqini tapır

Mehriban xanımı şəxsiyyət kimi xarakterizə edərkən daha bir mühüm məqamı da nəzərdən qaçırmaq olmaz ki, onun fəaliyyətində ənənəviliklə müasirlik, tarixi köklərə bağlılıqla dünyəvilik əsas prinsiplərdəndir. Bu mənada, onun Azərbaycan qadınının ailədəki rolu və ailəyə münasibəti, əsl milli-dəyərlər kontekstini əks etdirən fikirlərində təsdiqini tapır. "Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm".

Eyni zamanda, Mehriban xanım Azərbaycan qadınını ailədə sülhün, birliyin və məhəbbətin təminatçısı hesab edir: "Mənim üçün çox vacibdir ki, həyat yoldaşım olduqca dolğun və gərgin iş günündən sonra evə gəlir və burada onu anlayır və dəstəkləyirlər, onu qiymətləndirir və sevirlər".

Bəli, bu ifadələr çox sadə görünə bilər, amma eyni zamanda, çox böyük və dərin mənaları ehtiva etməkdədir. Həmin kəlamları daha dərindən incələyərsək, növbəti əsrarəngiz amilləri görmüş olarıq. Mehriban Əliyevanın həyata keçirdiyi layihələrdə maarifçi, xeyriyyəçi, kreativ ideyaları ilə yanaşı, mədəni, dini, milli-mənəvi dəyər və ənənələrə sədaqət müşahidə olunur.

Onun gördüyü işlərin harmoniyasında Azərbaycan xanımının yorulmaz əməyi, güclü iradəsi dayanır və Mehriban xanım şərəfli, xeyirxah missiyanı layiqincə yerinə yetirir.

Beləliklə, Azərbaycan qadınının bütün ali keyfiyyətlərini özünün təkrarsız şəxsiyyətində birləşdirən Mehriban Əliyevanın cəmiyyətdə yaratdığı müsbət aura insanları mənəvi saflığa, nəcibliyə, xeyirxahlığa səsləyir.

Bir məsələni də qeyd etmək istərdim ki, bu gün bizim bir çox xanımlarımız, gənc qızlarımız onun fəaliyyətindən ruhlanaraq ictimai həyatda aktiv iştirak etməyə başlayıblar.

## Azərbaycan xalqı onu sevir və dəyərləndirir!

Daha bir məqama toxunmaq istərdim. Belə ki, Mehriban xanımın müsahibələrinin birində birinci xanım olmağın məsuliyyəti haqqında çox önəmli bir nüansa toxunur. O, bu hissi belə izah edir ki, "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür...".

Mehriban Əliyevanın humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn əzmkar və çoxşaxəli fəaliyyətinin təməlində məhz ona verilən dəyər, eyni zamanda, millətə layiqli xidmət faktoru dayanır. Bu gün onun xalq sevgisini qazanması bu dəyərlərlə ölçülməkdədir.

Əgər nəzərə alarsaq ki, müasir dünyanın öz çətinlikləri, müəyyən tələbləri, enişləri və yoxuşları var, bu zaman onun öz işlərinin öhdəsindən layiqincə gəlməsini həm də qadın qəhrəmanlığı olaraq qiymətləndirə bilərik. Çünki qloballaşma şəraitinin tələblərindən biri də, hər bir millət, dövlət özünün varlığını qoruyub saxlamaq və digərlərinə tanıtdırmaq üçün müxtəlif mədəni - kütləvi, ictimai, sosial layihələr keçirirlər. Mehriban Əliyeva istər birinci vitse-prezident kimi, istər Heydər Əliyev Fondunun prezidenti kimi, istərsə də birinci xanım olaraq, hətta Azərbaycanın müharibə vəziyyətində olmasına baxmayaraq, öz tarixini, mədəniyyətini, adət və ənənələrini dünya ictimaiyyətinə çatdırır. Əlbəttə, bu proses hədsiz səbr və əzmkar irادə tələb edir. Mehriban xanımın Azərbaycanın şifahi xalq ədəbiyyatının, milli-mədəni və musiqi irsinin qorunub saxlanılması, inkişaf etdirilməsi və dünyada təbliği, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsi üçün gördüyü işlərin, yorulmadan, ancaq davamlı aparılan səylərin biz müsbət nəticələrini görürük.

Daha bir reallığı unutmamalıyıq ki, Mehriban xanım İSESCO və UNESCO-nun xoşməramlı səfiri kimi də müstəqil Azərbaycanın nailiyyətlərini, ölkəmizdə hökm sürən tolerantlığı təbliğ edir, mədə-

# əliyeva - zəriflik, lıq, kübarlıq və rlik mücəssəməsi



niyyətlərarası və sivilizasiyalararası dialoqun bərqərar olması üçün bütün səylərini göstərir. Bütün bu ağırlıqları, çətinlikləri zərif qadın çiynində saxlamaq isə hər qadına, hər xanıma müyəssər olmur!

Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı edilən genosidin dünyaya yayılmasında və təbliğ olunmasında Mehriban xanım Əliyevanın rolu böyükdür. "Xocalıya Ədalət" kampaniyası çərçivəsində Azərbaycan həqiqətlərinin dünya dövlətləri tərəfindən tanıdılmasında aparılan işlər xüsusi əhəmiyyət daşıyır. Qısa müddət ərzində bir çox ölkələr Xocalı soyqırımını rəsmən soyqırımı kimi qəbul etmişdir. Əlbəttə, bu onun gördüyü işlərin yalnız bir qismidir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr səhiyyə, mədəniyyət, sosial sahə, ekologiya sahələrindən əlavə, idmanı da geniş əhatə edir.

İlk Avropa Oyunlarının yüksək, güclü və peşəkar səviyyədə təşkil olunması və həyata keçirilməsində, Formula 1 yarışlarının Təşkilat Komitəsinin rəhbəri kimi, xanım Mehriban Əliyevanın böyük və əvəzolunmaz əməyi vardır.

Bildiyiniz kimi, hər bir ölkənin sosial-iqtisadi yüksəlişi, bütövlükdə onun inkişafını şərtləndirən amillərdəndir. Azərbaycanda həmin uğurların əsasını Ümummilli lider Heydər Əliyevin siyasi kursunun ləyaqətlə davam etdirilməsi təşkil edir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən mühüm dövlət proqramlarının və genişmiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində əhalinin rifahı yüksəldilmiş, paytaxtla bölgələr arasında fərqin aradan qaldırılması istiqamətində addımlar atılmışdır. Dövlət başçımızın cəmiyyətin inkişafına yönəlmiş qərarlar qəbul etməsi, bizi əhatə edən problemlərə böyük həssaslıqla yanaşması Onun vətəndaşlara olan diqqətinin nümunəsidir.

Birmənalı şəkildə qeyd etməliyik ki, ölkə həyatındakı bu dəyişikliklərdə Mehriban xanım Əliyevanın müstəsna rolu olmuşdur.

Mehriban xanımın Milli Məclisin deputatı olaraq fəaliyyət dövrü də özündə bir sıra əhəmiyyətli məqamları əks etdirməkdədir. Məhz onun millət vəkilliyi zamanında çoxsaylı humanizm aksiyaları həyata keçirildi, çoxsaylı məhbusların azadlığa buraxılması, ailələrinə qovuşmaları prosesində münbit addımlar atıldı. Eyni zamanda, parlament fəaliyyətinin digər sahələrində də Mehriban Əliyevanın yorulmaz əməyi öz bəhrələrini verdi.







## Genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti göstərən, bəşəriyyətin ali ideallarına xidmət edən Mehriban xanım Əliyeva bütün dünyada müasir Azərbaycan qadınının obrazını təcəssüm etdirir

Lakin buna qədərki fəaliyyətlərin əsas qismlərindən biri Heydər Əliyev Fonduna rəhbərliklə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, təbliğ edilməsi işini qarşısına məqsəd qoyan Fond, eyni zamanda, milli-mənəvi dəyərlərin qorunmasında, qadın və uşaq hüquqlarının müdafiəsi, elm, təhsil, mədəniyyət, səhiyyə, idman və ekologiya və s. sahələrində maraqlı layihələr həyata keçirir. Həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb", "Talassemiyasız həyat", "Diabetdən əziyyət çəkən uşaqlara qayğı", "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Təhsilə dəstək", internat həyatı başa çatan qızlar üçün yaşayış binasının tikilməsi və digər bu kimi layihələr uşaqların və ümumilikdə ailələrin rifahının yaxşılaşdırılmasına yönəlmişdir.

Mehriban xanımın təşəbbüsü ilə qadın hüquqlarının müdafiəsi istiqamətində apardığı işlər xüsusilə qeyd olunmalıdır. Məsələn, "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" layihəsi ölkədə böyük əks-səda doğurmuşdu. Qadın və uşaqların məişət zorakılığından müdafiəsinə yönəlmiş "Məişət zorakılığı haqqında Qanun" 2010-cu ildə qəbul olunmuşdu. Həmin Qanunun qəbul olunmasında, Ailə Məcəlləsində qızlar üçün nikah yaşının 18-ə qaldırılması ilə bağlı dəyişiklik edilməsində Mehriban xanım Əliyeva böyük təşəbbüs göstərmişdi. Bunun nəticəsi olaraq, erkən nikahlar və məişət zorakılığı ilə bağlı cinayətlərin sayı azalmaqdadır.

## Mehriban Əliyevanın geniş və əhatəli fəaliyyəti beynəlxalq ictimaiyyətin diqqətini ölkəmizə yönəldilməsinə imkan yaradıb

Mehriban xanımın təşkilatçılığı və dəstəyi ilə bağlı ölkədə keçirilən beynəlxalq tədbirlərin çox böyük əhəmiyyəti vardır. Onların sırasında "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Gender bərabərliyi: de-yure və de-fakto bərabərliyinin təmin olunması", Krans-Montana Forumu çərçivəsində "Qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüququdur" mövzularda keçirilən konfranslar, habelə dünya birliyini tolerantlıq və multikultural dəyərlərə dəvət edən nəhəng tədbirləri göstərmək olar.

Və 44 günlük Vətən müharibəsində Ordumuz Ali Baş Komandanın əmrlərini fədakarlıqla yerinə yetirərək tarixi qələbə qazanmışdır. Azərbaycanın şanlı qələbəsi ilə başa çatan döyüşdə ordumuzun şücaəti sayəsində torpaqlarımız işğaldan azad edilmişdir. Biz bu müharibəni şəhidlərimizin qanı-canı bahasına, hərbçilərimizin rəşadəti hesabına qələbə ilə başa çatdırmışıq. Möhtəşəm hərbi zəfərimiz sayəsində siyasi müstəvidə də qələbənin qazanılması təmin edilmişdir. Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyev dünyanın taleyini həll edən böyük dövlətlərin təzyiqlərinə qarşı öz yüksək intellekti, məntiqli diplomatiyası ilə sipər çəkdi, Qafqazda yeni reallıq yaratdı.

Birinci vitse-prezident Mehriban Əliyevanın bu çətin günlərdə ölkə Prezidenti ilə çiyin-çiyinə durması, işğaldan azad olunmuş torpaqlarımızdan dünyaya mesajlar verməsi, qazilərimizə göstərdiyi ana şəfqəti hamını ruhlandırdı.

Ermənistanın təxribatı nəticəsində sentyabrın 27-dən etibarən başlayan "Dəmir yumruq" əməliyyatı Azərbaycanın əsl hərbi qüdrətini, yüksək döyüş bacarığını nümayiş etdirərək Ermənistan silahlı qüvvələrini diz çökdürdü.

Bütün bunların nəticəsi olaraq deyə bilərik ki, Mehriban Əliyevanın geniş və əhatəli fəaliyyəti beynəlxalq ictimaiyyətin diqqətini ölkəmizə yönəldilməsinə imkan yaradıb. O, ölkənin dinamik inkişafına verdiyi mühüm töhfələrə, mədəniyyətimizin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, həmçinin, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə nəinki Azərbaycan Respublikasının, eləcə də müxtəlif dövlət və beynəlxalq təşkilatların mükafat və fəxri adlarla təltif olunmuşdur.

Genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti göstərən, bəşəriyyətin ali ideallarına xidmət edən Mehriban xanım Əliyeva bütün dünyada müasir Azərbaycan qadınının obrazını təcəssüm etdirir. O, nəinki ölkə qadınları, eləcə də dünya qadınları üçün örnəkdir və bizlər Azərbaycan xalqının nümayəndələri olaraq bu amildən qürur və fərəh hissi keçiririk!

# Mehriban xanım Əliyevanın fəaliyyətinin başlıca amalı Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqdır



**Milli Məclisin deputatı Elnur Allahverdiyevin yap.org.az-a müsahibəsi**

**- Elnur müəllim, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dünya miqyasında Azərbaycanın tanıdılması prosesinə töhfələri misilsizdir. Mehriban xanımın çoxşaxəli fəaliyyətinin dəyişməz olan, uğurlarının davamlılığını təmin edən, xalqın sevgisini qazandıran prinsipləri barədə fikirlərinizi bilmək istərdik...**

- Mehriban xanım Əliyevanın həm ölkə hüdudlarından kənarda, həm də ölkə daxildəki fəaliyyətinin başlıca amalı Azərbaycanın şərəfli tarixi, rəngarəng mədəniyyəti və incəsənətini, zəngin dövlətçilik ənənələrimizi, istedadlı xalqımızın dünəni və bu günü barədə həqiqətləri dünyaya çatdırmaqdır. Bu, olduqca məsuliyyətli, savad, bacarıq, dünyagörüşü tələb edən işdir. Çünki söhbət nəticə etibarilə ölkəmizin və xalqımızın dünyada formalaşan reputasiyası, imicindən gedir. Bu, bacarıqlı və eyni zamanda, incə düşünülmüş təbliğati prosesdir ki, bu gün hər birimiz bu fəaliyyətin nə qədər uğurlu olduğunun şahidiyik. Mehriban xanımın Azərbaycanı dünyada təbliğ edən aksiyalara rəhbərliyi bir növ əsasında bizim mədəniyyətimizin, incəsənətimizin, musiqimizin, idmanımızın, görkəmli simalarımızım tanıdılması duran diplomatiyadır.

Biz bu fəaliyyətin vacibliyi və əhəmiyyətini 44 günlük Vətən müharibəsi ərzində və sonra xüsusilə hiss edirik. Çünki sirr deyil, hər birimiz bilirik ki, dünyada erməni amilinin təsirindəndirmi, yaxud hər hansı təəssübkeşlikdəndirmi, - bizim uğurlarımızı gözləri götürməyənlər çoxdur. 30 ildir torpaqlarımız işğalda idi, həmin dünya dövlətləri ermənilərdən özlərinin BMT Təhlükəsizlik Şurası səviyyəsində qəbul etdikləri qətnamələrin icra olunmasını tələb edə bilmirdilər, etmirdilər. Ərazilərimizin işğalına, yüzminlərlə soydaşımızın öz torpağında məcburi köçkün həyatı yaşamasına göz yumurdular. İndi təsəvvür edin ki, Mehriban Əliyevanın rəhbərliyi altında dünyada, xüsusilə də Avropada aparılan təbliğat işi nəticəsində xalqımız haqqında formalaşmış sivil, bəşəri ideayalara əsaslanmış təəssürat olmasa idi müharibə vaxtı bizə hansı təzyiqlər olardı? Biz Mehriban xanımın sivilizasiyalararası, dinlərarası dialoq, dini dözümlülük istiqamətində etdiyi təşəbbüsləri unutmamalıyıq. Məhz bu addımlar Azərbaycanın xüsusilə Qərbdə müasir, sivil, qabaqcıl dövlət olması barədə aydın təsəvvürlərin yaranmasına səbəb olub.

Mehriban xanım Əliyevanın həm dövlətçilik sahəsində, həm humanitar missiyasındakı fəaliyyətində başlıca fəlsəfə fikrimcə, müasir və eyni zamanda, tarixinə, mədəniyyətinə bağlı qadın imicini, obrazını təcəssüm etdirir. Azərbaycan qadını savadlıdır, qabaqcıldır, elmlidir və eyni zamanda, keçmişinə, bağlı, ailəsinə qayğı və nəvazişi ilə seçilən qadındır. Məsələn, Prezident cənab İlham Əliyevin azad olunmuş rayon və kəndlərimizə səfərlərini götürək. Mehriban xanım bütün səfərlərdə cənab Prezidenti müşayət edir. Bu, həm torpağa sevgidir, həm də azərbaycanlı ailəsi necə olmalıdır, - buna bir nümunədir. Sualınıza cavab olaraq deyə bilərəm ki, bütün bunlar bir məcmu halda xalqın sevgisinə səbəb olan amillərdir.

**- Ölkəmizdə idarəçilik sistemində həyata keçirilən yeniləşmənin, təkmilləşmənin təsdiqi olaraq vitse-prezidentlik institutunun yaradılması, Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti təyin edilməsi bugünkü uğurlarımıza necə təsir etdi?**

- Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin olunmasını şərtləndirən amillər var. Təbii ki, Vətənə sədaqət, milli dəyərlərə hörmət bunların ən əsaslarıdır. Sırf professional nöqteyi-nəzərdən baxdıqda, Mehriban xanım 2005-2017-ci illərdə Milli Məclisin deputatı olaraq uğurlu fəaliyyəti ilə yadda qalıb. Mehriban xanım Əliyeva Cənubi Qafqazın ən iri siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının sədr müavinidir, ölkəmizdə və xaricdə çoxsaylı humanitar aksiyaları reallaşdırmış Ümummilli lider Heydər Əliyevin adını daşıyan fondun prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvü kimi zəngin təcrübəyə malikdir. Mehriban xanım təhsil, mədəniyyət kimi strateji sahələrdə çoxsaylı layihələrin təşəbbüskarıdır, həssas əhali qruplarına qayğıkeş münasibət, qazi və şəhid ailələrinin problemlərinin həlli istiqamətindəki uğurlu fəaliyyəti ilə tanınıb. Humanizm və çeviklik, qayğıya ehtiyacı olanlara ana nəvazişi Mehriban xanım Əliyevanın fəaliyyətində ehtiva olunan başlıca keyfiyyətlərdir. Bütün bu amillərin artıq dövlət vəzifəsində reallaşdırılması təbii ki, idarəetmə prosesində bir yenilikdir, keyfiyyətcə yeni mərhələnin göstəricisdir.

Mən sualınıza cavab kontekstində daha bir məqama xüsusi toxunmaq istəyirəm. Son illər ərzində cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hərtərəfli və köklü islahatların əsas istiqamətlərindən biri kadr islahatlarıdır. Çünki siyasətin də, iqtisadiyyatın da, humanitar həyatın da uğuru bacarıqlı kadr seçimindən asılıdır. Bu gün Azərbaycanın sürətlə dəyişən, müasir dünya ilə ayaqlaşa bilməsini təmin edən prioritet faktor insan kapitalı və kadr potensialıdır. Söhbət modern təhsilli, qabaqcıl dünyagörüşlü kadrlardan gedir. Indi gəlin baxaq, son illər ərzində mühüm, aparıcı vəzifələrə nə qədər belə gənclər təyin olunub, nə qədər yeni kadra cənab Prezident tərəfindən etimad göstərilib. Bu kadrların bir qismi, hətta deyərdim ki, əsaslı qismi Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunda çalışıblar. Onların idarəçi kimi formalaşmalarında Mehriban Əliyevanın böyük zəhməti var. Fikirmcə, əgər biz dövlət idarəçiliyində yeniliklərdən danışırıqsa, bu məqamı xüsusilə vurğulamalıyıq.

**- Mehriban xanım Əliyeva müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin zəngin irsinin təbliği məqsədilə yaradılan Heydər Əliyev Fondunun prezidenti olmaqla yanaşı, həm də Ulu öndərin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası Sədrinin Birinci müavinidir. Paralel şəkildə həyata keçirilən bu iki fəaliyyəti necə dəyərləndirirsiniz?**

- Hər iki fəaliyyət olduqca uğurludur. Mən sizin öncəki suallarınızda qismən də olsa Mehriban xanımın Heydər Əliyev Fondundakı fəaliyyətinə, bu fondun xalqımızın və dövlətimizin həyatında oynadığı nəcib rola toxundum. Həm partiyamız, həm də Heydər Əliyev Fondunun fəaliyyətinin qayesini Ümummilli liderin bizə bəxş etdiyi irs, ənənə, təcürbə təşkil edir. Partiya siyasi təşkilatdır və təbii ki, burada söhbət siyasi, dövlətçilik, idarəetmə irsindən gedir. Heydər Əliyev Fondunun fəaliyyəti isə Ulu öndərin elan etdiyi və həyatı boyu əsas tutduğu humanizm, xalqa sevgi, tarixə sayğı, mədəniyyətə qayğı prinsiplərinə əsaslanır. Arxada qalan illər nümayiş etdirir ki, Mehirban xanımın hər iki sahədə fəaliyyəti tədqirəlayiqdir.

**- Mehriban xanımın bu gün ölkə Prezidenti cənab İlham Əliyevlə birgə Azərbaycanın daha da qüdrətlənməsi, tarixi Zəfərimizin nəticələrinin möhkəmləndirilməsi istiqamətində səyləri xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Əgər mədəniyyət sferasından söz düşərsə, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə dünyaya səs salan, yenidən ənənəyə çevrilən ”Xarıbülbül” musiqi festivalının xalqımızda yaratdığı hissləri və dünyaya ünvanladığı mesajları necə xarakterizə edərdiniz?**

- Bu festivaldan öncə gəlin Qarabağımızın bir növ brendi olan, bu 30 ildə işğal edilmiş torpaqlarımızın mütləq qaytarılacağına təskinlik aldığımız muğamımızdan danışaq. Muğama marağın artmasında, muğam sənətinin bir növ dirçəlməsində, yeni istedadlı xanəndələr nəslinin yetişməsində, muğamın beynəlxalq tanıtımında Mehriban xanım misilsiz xidmətlər göstərib, tarixi rol oynayıb. İndi baxırıq Şuşamıza, Ağdamımıza və düşünürük ki, nə yaxşı ki, muğamımızı itirməmişik, yaşatmışıq. Axı ”Xarıbülbül” festivalı bir növ elə muğamın özüdür! Bu festival mədəniyyətdən daha çox tarixdir, yaddaşımızın bərpasıdır, düşmənlərimizə gözdağıdır. Bu baxımdan, şübhəsiz ki, Şuşanın azad olunmasından cəmi bir neçə ay sonra belə bir mədəni-tarixi tədbirin keçirilməsi Azərbaycanımızın, xalqımızın böyük qələbəsi və dünyaya verilən mühüm mesajdır. Bu mesaj ondan ibarətdir ki, Qarabağ hər zaman Azərbaycan olub, bu gün də Azərbaycandır. Fikrimcə, Azərbaycanda hər bir vətəndaş əmindir ki, qarşıdakı illərdə sərhədlərimizin möhkəmlənməsi, torpaqlarımızın təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı Qarabağın Azərbaycan olduğunu dünyaya çatdıracaq belə mədəniyyət hadisələrini çox görəcəyik və bir daha azərbaycanlı olduğumuzla fəxr edəcəyik.

# YAP Şirvan şəhər təşkilatının IX hesabat konfransı keçirilib




Avqustun 25-də Yeni Azərbaycan Partiyası Şirvan şəhər təşkilatının videoformatda IX hesabat konfransı keçirilib.

Əvvəlcə müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Şirvan şəhər təşkilatının sədr əvəzi Paşa Nəbiyev hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, Cənubi Qafqazın ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının VII Qurultayında qəbul edilmiş qərarlar, aparılan struktur dəyişiklikləri partiyamızın yenilikçi, təkmilləşməyə açıq, islahatçı olduğunu bir daha təsdiqlədi. Yeni Azərbaycan Partiyası Şirvan şəhər təşkilatı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun qurmağa səy göstərir.

O qeyd edib ki, Yeni Azərbaycan Partiyası Şirvan şəhər təşkilatı 82 ərazi ilk partiya təşkilatını özündə birləşdirir. 5508 üzvü öz sıralarında birləşdirən şəhər təşkilatında qadınlar və gənclər say etibarı ilə üstünlük təşkil edir. Hesabat dövründə partiyaya 714 nəfər üzv qəbul edilib ki, onlardan 320 nəfəri qadınlar, 394 nəfəri isə gənclərdir.





Sonra YAP Şirvan şəhər təşkilatının Nəzarət Təftiş Qrupunun sədri İsmayıl Yusubovun hesabat məruzəsi dinlənilib.

Müzakirələr zamanı çıxış edən YAP Şirvan şəhər təşkilatı İdarə Heyətinin üzvü, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Milli Məclisin deputatı İltizam Yusifov, şəhər təşkilatı İdarə Heyətinin üzvləri - təşkilatın sədr müavini, Səhiyyə şöbəsi ərazi ilk partiya təşkilatının sədri Mətanət Səfərova və təşkilatın Gənclər Birliyinin sədri Namini Namidə, şəhər təşkilatının Şura üzvü, Şirvan şəhər 1 saylı tam orta məktəbin direktoru Rəfiqə Rzayeva hesabat dövründə görülən işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Yeni Azərbaycan Partiyası yeniliyə, təkmilləşməyə xüsusi önəm verərək, fəaliyyətini dövrün, zamanın tələblərinə uyğun qurur, yeni reallıqların qarşıya qoyduğu vəzifələri uğurla həyata keçirmək üçün bütün qüvvə və səylərini səfərbər edir: ”Partiyanın VII Qurultayı tarixi Zəfərimizdən sonrakı dövrə təsadüf etdiyi üçün yeni hədəflərə uyğun qəbul edilən qərarlar istər ölkəmizin, istərsə də partiyamızın həyatında olduqca əhəmiyyətlidir. Azərbaycanın həyatında yeni mərhələ başlayıb. Ərazi bütövlüyümüzün bərpa olunması, tarixi torpaqlarımızın öz sahibinə qaytarılması qürurverici olmaqla yanaşı, daha böyük işlərə, qələbəmizin nəticələrini möhkəmləndirməyə çağırış edir”. Ə.Tağıyev YAP Şirvan şəhər təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb. Konfransda YAP Şirvan şəhər təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.









# Ermənistan parlamentinin növbəti böhranı





### Ölkə çökür, Paşinyan xalqı ittiham edir, xalq isə onu seçir...

Kifayət qədər məlumdur ki, 44 günlük Vətən müharibəsində qalibiyyət qazandıqdan sonra Azərbaycan danışıqlar prosesinin elə ilk günlərindən müəyyən etdiyi məqsədlərini açıq şəkildə ifadə edib. Daha dəqiq desək, üçtərəfli bəyanatın realizə olunması üçün Bakının qətiyyətli, eləcə də hələ ki, səbrli mövqeyi qalmaqdadır. Lakin bu məsələdə Ermənistanın davranışları, sözün əsl mənasında, uşaq bağçasındakı cığal və nəticədə döyülən uşaq təsirini bağışlamaqdadır. Təkcə növbədənkənar parlament seçkilərindən sonra nə qədər qəribə görünsə də, qələbə qazanaraq baş nazir kürsüsünü qoruyub-saxlamağa müvəffəq olan Nikol Paşinyanın məhz seçkilərdən sonrakı bəyanatları istər-istəməz onun siyasi intihara əl atmaqda israrlı olduğunu göstərməkdədir - məsələn, Zəngəzur dəhlizi kimi faktorlarda.

### Nikol Paşinyan avqustun 24-də parlamentdəki çıxışında onu da deyib ki...

Ancaq Paşinyanın digər addımları bu gün də Ermənistanda birmənalı olaraq dəstəklənmir, yaxud onun bir sıra hallarda loyal davranışları üzə çıxarkən, revanşçı siyasi güclər dərhal isterik şəkildə qiyam qaldırırlar. Maraqlıdır ki, Nikol Paşinyan avqustun 24-də parlamentdəki çıxışında onu da deyib ki, Bakı Qarabağın və xüsusilə Qarabağdakı bölgələrin Azərbaycanın bir hissəsi olduğuna inanırdı. "Onun üçün (Bakı üçün-red.) heç bir "Dağlıq Qarabağ Muxtar Vilayəti" yoxdur və daha da çox "DQR" mövcud deyil. Həmişə Qarabağı və bölgələri nəzarətə götürmək məqsədini daşıyırdılar və bəyan edirdilər ki, münaqişə danışıqlar yolu ilə nəticə verməsə, buna hərbi yolla nail olunacaq", xatırladan Paşinyan, əslində, Azərbaycanın mövqeyi ətrafında fikirləşmələri yerinə Qarabağın, yəni "DQR"in beynəlxalq səviyyədə tanınması probleminə diqqət yetirdiklərini deyib. Yəni o, bu siyasi gedişin kökündən yanlış olmasına eyham vurub.

O, daha sonra başqa bir düsturun ortaya çıxdığını - ərazilərin yerinə status məsələsini də xatırladıb. "Bunu xəyanət hesab edənlər də var idi. Qarabağın Ermənistanla birləşməsi müqabilində bəzi ərazilərin Ermənistana güzəşt edilməsi şəklində bir düstur da var idi. Bu da xəyanət hesab olunurdu. Azərbaycanın ritorikası hər yerdə və hər zaman eyni idi - Ermənistanın isə ölkə daxilində, xaricdə və danışıqlar masasında yanaşmaları fərqli idi. Bu suala cavab yox idi: əgər danışıqlar masasında bizə sərf edən qərar olmazsa, nə edəcəyik? Bu sistemli problem özünün ciddi təsirlərini göstərmiş oldu", erməni baş naziri deyib.

### Paşinyan yenidən siyasi rəqiblərinin və ölkə vətəndaşlarının böyük bir hissəsinin ona ləqəb qoyduğu "xain" damğasından özünü təmizləməyə çalışır...

İndi maraqlıdır, Nikol bu vasitə ilə nə demək istəyir? 44 gün davam edən müharibədə Ermənistanın məğlubiyyətinə, çoxlu sayda miflərinin dağılmasına səbəb olan, eləcə də daxili və xarici siyasətdəki sonsuz uğursuzluqlara görə erməni cəmiyyətinin qarşısında haqq qazandırmaq cəhdimi? Yəni görünən budur ki, Paşinyan yenidən siyasi rəqiblərinin və ölkə vətəndaşlarının böyük bir hissəsinin ona ləqəb qoyduğu "xain" damğasından özünü təmizləməyə çalışır...

Bunu görməmək də olmur. Təkcə Ermənistan parlamentində baş vermiş əlbəyaxa dava-dalaşların görüntülərinə nəzər salarkən, əslində, ölkədəki vəziyyəti tam çılpaqlığı ilə müəyyən etmək mümkündür.





### Parlamentdəki savaş nədən qaynaqlandı?

Xatırladaq ki, eks-prezident Serj Sarqsyana yaxınlıqları ilə seçilən "Şərəf duyuram" blokundan olan deputatların hay-haraylarını, həmçinin "Ermənistan" blokunun təmsilçisi, sabiq müdafiə naziri Seyran Ohanyanın parlamentin spikeri Alen Simonyanlar olan söz davasını nümunə kimi göstərmək olar.

Hər şey isə "Şərəf duyuram" blokunun deputatı Anna Mkrtçyanın Nikol Paşinyanı rahatsız edən suallara tutmasından başlayıb. O, baş nazirin sonsuz səhvlərini sadalayıb və Paşinyanın çox sayda cangüdənləri ilə parlamentə gəlməsi də erməni deputatının xoşuna gəlməyib. Anna Mkrtçyan hisslərini sözlə ifadə edərkən isə "Vətəndaş sazişi"ni təmsil edən paşinyançı deputatlar yerlərdən ona qarşı təhdidlər səsləndirdilər, o isə cavab olaraq "kapitulyant" ittihamını bağırıb.

İnsident başlayan kimi, parlamentin sədri Alen Simonyan mikrofonu söndürüb, bunun da nəticə vermədiyini gördükdən sonra Mkrtçyanı zalı tərk etməyə çağırıb. Anna isə parlament sədrinin çağırışına məhəl qoymayıb. Alen Simonyan təhlükəsizlik xidmətinin əməkdaşlarını zala dəvət edərək, Annanı çölə çıxarmağı əmr edib. Bunun da nəticəsində müxalifətçi deputatlarla təhlükəsizlik xidmətinin əməkdaşları arasında əlbəyaxa döyüş başlayıb, hətta kürsülər belə havada oynayıb, özü də "Nikol xain!" şüarları ilə birgə.

### Nikol Paşinyan öz çıxışlarında ona da eyham vurur ki, erməni xalqı hər zaman hər şeyə görə narazı qalır, amma unudur ki...

Artıq bu da faktdır ki, baş verənlər özü-özlüyündə Ermənistanın "siyasi mədəniyyətinin" göstəricisi kimi qiymətləndirilə bilər. Halbuki, biz Ermənistan parlamentində bundan da betər hadisələrin yaşandığının şahidləri olmuşuq - misal üçün, terror hadisəsini...

Yeri gəlmişkən, erməni siyasi zümrəsi üçün bütün bunların heç bir əhəmiyyəti yoxdur. Məsələn, ötən ilin 10 noyabrında Nikol Paşinyanın kapitulyasiya sənədinə imza atmasının ardınca kütlə hazırkı XİN rəhbəri, o zamankı parlamentin sədri Ararat Mirzoyanı küçənin ortasında soyunduraraq, onu linç etmişdilər. Üstəlik, İrəvanın küçələrində çılğıncasına ora-bura varan kütlə Nikol Paşinyanı da linç etmək üçün axtarışa çıxmışdılar.

Məhz indi, Nikol Paşinyan öz çıxışlarında ona da eyham vurur ki, erməni xalqı hər zaman hər şeyə görə narazı qalır. Amma unudur ki, vaxtilə ona edilən təkliflərdən biri də Qarabağ münaqişəsinin mərhələli həlli olib. Məsələn, 2019-cu ilin 8 fevralında Turan agentliyinə müsahibə verən Erməni milli konqresinin sədr müavini Levon Zurabyan bildirmişdi ki, qarşılıqlı güzəştlərə hazır olmaq lazımdır. "Bu gün biz ondan imtina edirik ki, sabah onları geri istəməli olacağıq, amma ala bilməyəcəyik", deyə Zurabyan bildirmişdi. Bu fikirləri Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan da demişdi.

Hazırda isə Paşinyan və onun tərəfdarları vaxtilə bu plandan imtina etmələrini hər vəchlə inkar etməyə çalışırlar. Halbuki, Nikol yuxarıdakı təkliflərlə bağlı demişdi: "Levon Ter-Petrosyanın ərazilərin sülh qarşılığında dəyişdirilməsi formulası hətta müzakirə edilə bilinməz". Lakin bu da son deyil.

Ermənilər öz faciələrinə yenidən imza atıblar və günahı Paşinyanda axtararkən, arada özlərində də axtara bilərlər...

Yəqin ki, çoxumuz Paşinyanın Şuşada "Qarabağ Ermənistandır və nöqtə" ifadəsini xatırlayır və çoxumuz onun sərxoş halda Cıdır düzündəki rəqsinin görüntülərini izləmisiniz. Habelə hər birimiz o zamankı müdafiə naziri David Tonoyanın "yeni müharibə Azərbaycandan alınacaq yeni ərazilərə səbəb olacaq" tipli yekəbaş bəyanatını eşitmişik. Eləcə də Nikolun vətəndaş nikahlı arvadı Anna Akopyanın "Erato" adlı qadın batalyonu yığıb, boş silahlarla sözdə hərbi təlimlərdəki "ba-bax, ba-bax, ba-bax" tipli sirk tamaşalarını da istehza ilə yada salırıq.

Bəli, Paşinyan istəsəydi heç müharibə də olmazdı və bu gün Ermənistan dəhşətli dərəcədə böhranla qarşı-qarşıya qalmazdı. O, uduzdu və indi də minlərlə həlak olan hərbçilərinin saylarını maksimum gizlətməyə çalışır. Onsuz da hər zaman Rusiyadan və s. ölkələrdən asılı vəziyyətdə qalan vassal Ermənistan indi suverenliyini tamamilə itirib və sərhədlərində ruslar dayanır. Ermənistan sürətlə boşalır və gedənlərin əsas hissəsi birtərəfli biletlər əldə edirlər. Halbuki, bu həmin Paşinyandır - müharibədəki məğlubiyyətindən sonra keçirilən növbədənkənar parlament seçkilərində 53% səs topladı. Əslində, Nikolun bəzi hallarda erməni xalqını da ittiham etməsi yerinə düşəndir. Necə deyərlər, ermənilər öz faciələrinə yenidən imza atıblar və günahı Paşinyanda axtararkən, arada özlərində də axtara bilərlər...

***Rövşən RƏSULOV***

# Həm hərb meydanında, həm də informasiya savaşında Qalib Lider





ZƏRİFƏ QULİYEVA,
YAP üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri

### Prezident Azərbaycanı informasiya savaşında da qələbəyə aparır

Bəli, son 18 il ərzində bütün sahələrdə qələbə qazanan Azərbaycan 44 gün davam edən İkinci Vətən Müharibəsi dövründə bizi qələbələrə aparan əsas faktorlardan biri möhtərəm Prezidenti 44 günlük savaş zamanı dünyanın 30-a yaxın mediasına çoxsaylı müsahibələr verdi, bir çox beynəlxalq tədbirlərdə etdiyi çıxış və bəyanatları ilə Qərb ictimai rəyində Azərbaycanın xeyrinə dönüş yarada bildi. Hətta qərəzli suallar qarşısında, sözün əsl mənasında, siyasi liderlik dərsi keçən Prezident Əliyev özünün hazırlıqlı siyasətçi olduğunu sübuta yetirməklə yanaşı, Azərbaycanın haqlı mövqeyini konkret faktlarla ortaya qoydu, bütün dünyaya çatdırdı.

Müharibədən sonra 50-dən çox yerli və xarici media nümayəndələrinin iştirak etdiyi və 4 saatdan çox davam edən mətbuat konfransında isə Prezident İlham Əliyev jurnalistlərin suallarına dörd dildə - Azərbaycan, türk, ingilis və rus dillərində cavablandırdı. Hətta Böyük Britaniyadan olan jurnalist Aynur Tattersal mətbuat konfransında bildirdi ki, 25 ildir jurnalistika ilə məşğuldur, amma hər hansı prezidentin dörd dildə bu cür mətbuat konfransı keçirməsinin şahidi olmayıb. O, Prezidentin rekorda imza atdığını dilə gətirdi. Bu, Ali Baş Komandanımızın sərrast fikirləri və mükəmməl diplomatiyası idi. Ümumilikdə, Prezident İlham Əliyev müharibə dövründə xarici mediaya verdiyi müsahibələrlə yalnız döyüş meydanında deyil, informasiya müharibəsində də Ali Baş Komandan xarici mediada hücum diplomatiyası sərgiləyərək tarixi həqiqətlər, Dağlıq Qarabağ münaqişəsinə dair vacib hüquqi və siyasi məqamlar barədə beynəlxalq ictimaiyyəti məlumatlandırıb. Onun gərgin əməyi və uğurlu informasiya siyasəti sayəsində dünya miqyasında ictimai rəyin Azərbaycanın lehinə dəyişməsi təmin edilib.

Dövlət başçısının dünyanın nüfuzlu nəşrlərinə verdiyi müsahibələrdə təkcə erməni yalanları ifşa edilməyib, anti-Azərbaycan dairələrin qarayaxma kampaniyaları da iflasa uğradılıb. Qeyd edək ki, indiyə qədər Azərbaycan tərəfdən heç bir müsahibə, açıqlama, nitq, video, çıxış xarici mediada bu qədər izlənilməyib. İndi isə, artıq izlənilir. Cənab Prezidentin sayəsində. Yəni, məlum faktın özü yetərincə böyük göstəricidir və bu, Azərbaycana və onun Liderinə olan xoş münasibətin növbəti göstəricisidir.

Bir sözlə, dövlət başçısının həm müharibəni gedişində, həm də sonra beynəlxalq ictimai rəyi Azərbaycanın xeyrinə dəyişməyi necə bacardığının hər kəs şahididir. Mühüm beynəlxalq platformalarda nitqləri, müzakirələrdə iştirakı ilə Azərbaycan Prezidenti aydın göstərir ki, Azərbaycan iqtidarı dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə konseptual yanaşır. Bu amil demək olar ki, dünyanın bütün aparıcı media orqanları tərəfindən vurğulanır.

Xüsusilə də, Prezident İlham Əliyevin "CNN Türk" telekanalına müsahibəsi də əvvəlki müsahibələri kimi Prezident, Ali Baş Komandan İlham Əliyevin "CNN Türk" televiziya kanalına müsahibəsi beynəlxalq aləmdə böyük əks-səda doğurub. Dövlət başçısı bu müsahibə zamanı bir daha Ermənistana və onu silahlandıranlara növbəti xəbərdarlıq etməklə Azərbaycanın qətiyyətli mövqeyini nümayiş etdirdi.

### Prezidentin "CNN Türk" telekanalına müsahibəsi - Azərbaycanın qətiyyətli mövqeyinin nümayişi

Prezident İlham Əliyev "CNN Türk" telekanalına müsahibəsində Ermənistana və onu silahlandıranlara xəbərdarlıq etməklə Azərbaycanın qətiyyətli mövqeyinin nümayişi etdirdi. Prezident İlham Əliyev müsahibəsində 2020-ci il 10 noyabr razılaşmasından sonra regionda baş verən bəzi xoşagəlməz hallara münasibət bildirərək, sülh və yenicə formalaşmaqda olan birgə əməkdaşlıq mühitinə zərər verən tendensiyalardan narahatlığını ifadə etdi. Ermənistanın son zamanlar qeyri-konstruktiv hərəkətlərinə, bu ölkəni silahlandıraraq Qarabağda və Azərbaycanla sərhəd zonasında təxribatlar törətməyə, atəşkəsi pozmağa təhrik edən qüvvələrə də açıq və aydın şəkildə mesajlar verdi. Prezident İlham Əliyev, eyni zamanda, Rusiyanın Ermənistanı silahlandırması, Rusiya sülhməramlılarının üçtərəfli Bəyanatının prinsiplərinə tam riayət etməməsi, Azərbaycanın müharibə istəmədiyi, lakin zərurət yaranacağı halda yenidən müharibəyə başlaya biləcəyinə dair fikirləri ilə siyasi auditoriyaya açıq mesajlar ünvanladı. Qarabağda sülhün qorunmasını təmin etməli olan Rusiya sülhməramlılarına xəbərdarlıq ünvanladı.

"Rusiyadan gözləntimiz odur ki, üçtərəfli Bəyanatla onun üzərinə düşən bütün müddəaları yerinə yetirsin. Ümid edirik ki, Rusiya bundan sonra da bu bölgənin təhlükəsizliyi üçün öz səylərini əsirgəməyərək, uzunmüddətli sülhü təmin etmək üçün addımlar atacaq. Eyni zamanda, bizim gözləntimiz odur ki, Rusiya Ermənistanı silahlandırmasın", - deyən dövlət başçısı konkret və aydın bəyanat verən Prezident İlham Əliyev Azərbaycanın Qələbəsindən, müharibənin başa çatmasından və Ermənistan rəhbərliyinin də məğlubiyyətlə barışmasından sonra bölgədə hərbi manevrlərin, silahlanmanın anlaşılmaz və yolverilməz olduğunu bildirib.

Prezident İlham Əliyev müsahibəsində, həmçinin bütün dövlətləri xəbərdar etdi ki, "Bu hərəkətləri yığışdırsınlar. Bu, olduqca qətiyyətli və çox açıq bir bəyanatdır və hər kəs öz məsuliyyətini dərk etməlidir".

Dövlətimizin başçısı həm Ermənistana, həm də havadarlarına ciddi mesajlar verdi. Düşməni bir daha xəbərdar etdi ki, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır. Təbii ki, düşmənlərimiz bu xəbərdarlıqdan ciddi nəticə çıxarmalı, yenidən müharibə əhval-ruhiyyəsinə düşməməlidirlər. Unutmamalıdırlar ki, 30 il ərzində xarici havadarlarının köməyi ilə işğal altında saxladıqları Azərbaycan ərazilərindən 44 gün ərzində qovuldular. Bu müddət ərzində Ermənistan ordusu darmadağın edildi. Ötən il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli Bəyanatla düşmən rəsmən təslim olduğunu etiraf etdi. Bundan sonra ermənilərin yenidən baş qaldırmaları mümkün deyil. Dünya ictimaiyyəti bir daha şahidi oldu ki, Ermənistan qonşu dövlətlərin torpaqları hesabına hələ də "böyük Ermənistan" dövləti yaratmaq iddiasından əl çəkməyib və öz ərazisini bu yolla daha da genişləndirmək istəyir. Təəssüf ki, beynəlxalq aləm, xüsusilə Qərb və Avropanın bir sıra dövlətləri, o cümlədən qərəzli beynəlxalq təşkilatlar Ermənistanın faşizmə xas olan siyasətini biganəliklə qarşılayır, işğalçı ölkəyə heç bir sanksiya tətbiq etmirdilər.

Dövlət başçımızın müsahibəsinin geniş əks-səda doğurduğunu, artıq bir çox ölkələrin kütləvi informasiya vasitələrində dərc olunduğu da göz qarşısındadır. Belə olan halda Ermənistan bundan ciddi nəticə çıxarmalı, son variant kimi sülh danışıqlarına razılıq verməlidir. Dövlət başçımızın dediyi kimi, əgər buna razılıq verməsələr, sonrası onların özləri üçün pis olacaq.

Bir sözlə, Prezident İlham Əliyev yeni dövrün tələblərinə cavab verən yeni informasiya strategiyası nümayiş etdirir. Bu siyasi kurs şəffaflıq, obyektivlik, sistemlilik, operativlik kimi prinsiplərə əsaslanır. Dövlət başçısı milli maraqların müdafiəsi, ölkə həqiqətlərinin müasir üslubda dünya ictimaiyyətinə çatdırılması, cəmiyyətin hərtərəfli məlumatlandırılması, ictimai rəyə hörmət kimi mühüm amillərdən ibarət yeni doktrinaya malikdir və bunu inamlı, çevik surətdə həyata keçirtməklə özünün və Azərbaycanın nüfuzunu artırır.

Bir sözlə, Prezident İlham Əliyev cənabları bütün müsahibələrində olduğu kimi, Türkiyənin "CNN Türk" televiziya kanalına müsahibəsi Prezident İlham Əliyev Azərbaycanın fikir nöqtəsini, baxış bucağını hər zamankı kimi, yenə də ən yüksək səviyyədə qoruyub müdafiə etməyi bacardı. Dövlətimizin başçısı çıxışında ATƏT-in Minsk qrupunun keyfiyyət əmsalının sıfıra bərabər olduğunu deməklə həmin dövlətlərə daha bir mesaj göndərdi ki, məhz onların ucbatından 44 günlük müharibə baş verdi və yaxşı olar bundan sonra Cənubi Qafqazdakı proseslərə xələl gətirməsinlər. Qeyd etdi ki, əgər töhfə verə bilirsinizsə, bunu edin, bacarmırsınızsa, bu məsələlərdən kənar dayanın. Hər kəsə məlumdur ki, Minsk qrupunda BMT Təhlükəsizlik Şurasının beş dövlətindən üçü təmsil olunur, onlar nəinki regionda, ümumilikdə planetin hər nöqtəsindəki proseslərə ciddi şəkildə təsir etmək imkanına malikdir.

Bununla Prezident İlham Əliyev bir daha qalib Sərkərdə və qalib Azərbaycanın rəhbəri kimi cəsarətli, qətiyyətli mövqeyini nümayiş etdirdi və bildirdi ki, İkinci Qarabağ savaşı hər kəs üçün dərs olmalıdır. Və Prezident İlham Əliyev müsahibəsində "dəmir yumruğu" növbəti dəfə xatırlatdı. Ermənistanın hərbi-siyasi rəhbərliyinin son vaxtlar intensivləşən məsuliyyətsiz bəyanatlarına da cavab verərək dedi: "Nədir, Ermənistan yeni müharibəyəmi hazırlaşır?! Əgər belədirsə, onda biz qabaqlayıcı tədbirlər görəcəyik".

Bir sözlə, Prezident İlham Əliyev müsahibə zamanı Azərbaycanın dövlət maraqlarını ən yüksək səviyyədə qorudu və hər kəsə öz ciddi mesajlarını göndərmiş oldu. Beləliklə, bütün bu təhlillər belə deməyə əsas verir ki, bütün bunlar düşünülmüş strategiyanın tərkib hissəsidir və Prezident Əliyev nəyi, nə vaxt, necə deməyi öncədən planlaşdırır.

# Öz xalqının gələcəyinə güllə atan ermənilər



***Nankor, yaramaz və nadan qonşularımız və onları dəstəkləyən qüvvələr hərbi əməliyyatların dayandırıldığını elan edən üçtərəfli Bəyanatın şərtlərini elə ilk günlərdən pozmağa başladılar. Erməni silahlı qüvvələrindən Qarabağda "maşa" aləti kimi istifadə edənlər görəsən niyə bölgədə müharibə ocağını yenidən körükləməyə çalışırlar? Məgər atəşkəsi pozan ermənilər anlamırlar ki, onlar öz xalqının gələcəyinə güllə atırlar?!. Bəs görəsən, Kreml niyə regionda yenə münaqişənin əsl səbəbkarının ermənilər olmadığını təlqin etməyə çalışır? Axı, sülhün davamlı olması ilk növbədə rus sülhməramlılarının "himayə" etdiyi erməni xalqının xeyrinədir.***




...Ötən ilin 26 noyabrında işğaldan azad olunmuş Xocavənd rayonunun Sor kəndində xidmət edən hərbçilərimizə ermənilərin qəfil hücumu nəticəsində 3 hərbi qulluqçumuz öldürüldü, 2 nəfər yaralandı. Dekabrın 8-də Hadrut kəndi yaxınlığında bir əsgərimiz şəhid oldu, "Azercell" əməkdaşı rabitə və ötürmə avadanlığı quraşdırarkən ağır yaralandı.

Dekabrın 11-də Hadrut ətrafında gizlənən və mərkəzi komandanlığa tabe olmadığını bildirərək, Bəyanata əsasən, Azərbaycanın nəzarətinə keçməli olan ərazidən çıxmayacağını iddia edən silahlı ermənilərin varlığı nəinki erməni mediasında açıq-aşkar etiraf edildi, hətta onların təbliğatı aparıldı. Həmin günlərdə Xocavənd rayonunun Köhnə Tağlar və Çaylaqqala kəndlərində gizlənən erməni terrorçuları Azərbaycan Ordusunun əsgərlərinə və mülki şəxslərə hücum etdilər. Nəticədə insanlar öldürüldü və yaralandı. Erməni mediası Köhnə Tağlar kəndi ətrafında yerləşən bu silahlıları "qəhrəman" partizanlar kimi təqdim etməyə başladılar. Ermənistan rəsmiləri və Rusiya sülhməramlıları isə onların "azdığı", "mühasirəyə düşdüyü" iddiasını irəli sürdülər. Rusiya Müdafiə Nazirliyinin insidentdən dərhal sonra - 13 dekabrda "xəritəni yenilədiyini" açıqlaması artıq Bəyanata da, sülhməramlı missiyasına da, ümumiyyətlə, rus ordusunun burda mövcudluğunun səbəbinə də həddən artıq böyük şübhə yaratmağa rəvac verdi. Bundan sonra rus sülhməramlıları güya kəndlərə "ciddi" nəzarət etməyə başladılar... Lakin 27 dekabrda Xocavənd rayonunun Ağdam kəndi istiqamətində qanunsuz erməni silahlı qrupu və ya ərazidə qalmış Ermənistan silahlı qüvvələrinin qalıqlarından ibarət 6 nəfərlik dəstə Azərbaycan Ordusunun bölmələrinə hücum etdi. Nəticədə Azərbaycan Ordusunun bir nəfər hərbi qulluqçusu şəhid oldu, daha bir əsgər isə yaralandı.

Baş verənlərin qarşılığında rus sülhməramlılarının silahlı ermənilərə qarşı kifayət qədər yumşaq və loyal münasibəti apaydın özünü büruzə verdi. Bütün bunlar Azərbaycan xalqında belə bir fikir formalaşdırır ki, rus sülhməramlıları ermənilərin ərazidən getməsində heç də maraqlı görünmür.

9 yanvar 2021-ci ildə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ermənistan Respublikası Xarici İşlər Nazirliyinə verdiyi bəyanatında Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Müdafiə Nazirliyinin həyata keçirdikləri birgə əməliyyat nəticəsində ölkəmizin işğaldan azad edilmiş







ərazilərində Ermənistan tərəfindən məqsədyönlü şəkildə yerləşdirilmiş 62 nəfərdən ibarət erməni terrorçu-diversant qrupu saxlanılaraq istintaqa təhvil verildiyi bildirildi. İstintaq zamanı erməni terrorçu-diversiya qrupunun üzvləri 26 noyabr 2020-ci il tarixində, yəni Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Baş nazirinin imzaladığı üçtərəfli Bəyanatla əldə edilmiş atəşkəsin qüvvəyə minməsindən sonra Azərbaycan ərazilərinə göndərildiklərini bildirdilər.

Ermənistan silahlı qüvvələrinin qalıqlarının tam şəkildə Rusiya Federasiyası sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarılmasının təmin olunmaması, onların qondarma "respublikanın" silahlı qüvvələri kimi qələmə verilməsi bölgədə erməni təxribatlarına açıq-aşkar yaşıl işıq yandırmaqdır.

Azərbaycan Müdafiə Nazirliyi avqustun 11-də 10 noyabr Bəyanatından keçən son 9 ayda ilk dəfə olaraq rus sülhməramlılarına xəbərdarlıq etdi. Bildirildi ki, Rusiya sülhməramlı qüvvələri üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq müvəqqəti dislokasiya olunduqları Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin yerləşdirilməsi hallarına son qoymalıdır. Əks halda Azərbaycan adekvat tədbirlər görmək məcburiyyətində qalacaq.

Xalqımızın, dövlətimizin niyyəti budur ki, Qarabağda Ermənistanın hərbi cinayətinə, təcavüzünə son qoyulsun, işğalçı ordunun tör-töküntüləri ərazimizi tərk etsin. Amma həm ermənilər, həm də rus sülhməramlıları hələ ki üzərilərinə götürdükləri öhdəliklərdən boyun qaçırmağa cəhd edirlər. Şübhəsiz ki, Azərbaycan belə cəhdlərin davam etməsini heç vaxt qəbul etməyəcək.

Digər tərəfdən ermənilərin Azərbaycan torpaqlarını atəşə tutması ilk növbədə Rusiyanın sülhməramlı missiyasına zərbə vurur.

Bugünlərdə Xankəndidə yaşayan bir qrup erməni Rusiya sülhməramlı hərbçilərinin iştirakı ilə Şuşanın giriş postuna yaxınlaşaraq Azərbaycan vətəndaşlığı qəbul etməyə hazır olduqlarını bildiriblər. Həmçinin Azərbaycan dövlətindən iş istəyiblər. "Biz çox bərbad vəziyyətdə yaşayırıq, Xankəndidə iş, çörək yoxdur, ac qalmışıq. Azərbaycan dövlətindən xahiş edirik ki, bizi vətəndaşlığına qəbul edib iş versin. Xankəndi əhalisinin əksəriyyəti Azərbaycan dövlətinin Qarabağda apardığı yenidən qurma işlərinə dəstək verməyə hazırdır, biz burada fəhlə də işləməyə hazırıq, yetər ki, bizə iş verin", - deyə ermənilər Azərbaycan hərbçilərindən xahiş ediblər. Təbii ki, Azərbaycan hərbçiləri həmin ermənilərin xahişlərini lazımi dövlət qurumlarına çatdıracaqlarına söz veriblər. Sonra sözügedən ermənilər Rusiya sülhməramlılarının müşayiətilə Xankəndinə geri qayıdıblar.

Xankəndidə isə özünü qondarma "DQR-in xarici işlər naziri" kimi təqdim edən David Babayan iddia edib ki, guya, atəşkəsi məhz Azərbaycan tərəfi pozur və bu da ermənilərin qorxmasına hesablanıb. "Azərbaycan planlı şəkildə hərəkət edir. Erməni mediasının özü də bilmədən Azərbaycanın maraqlarını qoruduğu da diqqəti çəkir. Çünki havaya bir güllə atılan kimi mətbuat yeni müharibənin başlanmasından, faciənin baş verməsindən və əhalinin qorxu içində olmasından yazır. Nəticədə, Azərbaycan istəyinə çatır. Yəni havaya bir güllə atmaqla Qarabağda yaşayan ermənilərin qorxuya düşməsinə nail ola bilir".

David Babayan baş verənlərdən yalnız Qarabağ ermənilərinin deyil, həmçinin xaricdə yaşayan ermənilərin də qorxduğunu etiraf edib. "Bundan başqa, bu gün Qarabağda xaricdə yaşayan erməni həmvətənlərimiz bir sıra layihələr həyata keçirmək istəyir, investisiya qoymaq istəyir. Belə hadisələr fonunda onlar da qorxurlar, fikirlərini dəyişirlər".

Onu da qeyd edək ki, Qarabağ məsələsi erməni xalqını maraqlandırmır. Necə deyərlər, xalq öz gündəlik məişət qayğısının hayındadır. ABŞ-ın Beynəlxalq Respublika İnstitutunun Ermənistanda keçirdiyi ictimai rəy sorğusunun nəticələrinə görə, ermənilərin daha çox maraqlandıran onların sosial-iqtisadi vəziyyətləridir. Qarabağ məsələsi ermənilərin yalnız 9 faizini, sərhəd problemləri 5 faizini, Ermənistanın milli təhlükəsizliyi cəmi 3 faizini maraqlandırır.

Hazırda Ermənistan əhalisinin 36,7 faizi kəndlərdə, 63,3 faizi isə şəhərlərdə yaşayır. Yerlərdə həyat şəraitinin ağırlığı kəndlərin sürətlə boşalmasına gətirib çıxarıb. Rəsmi məlumata görə, təkcə Lori vilayətində 15 il ərzində 38 mindən çox insan vilayəti tərk etməyə məcbur olub.

Bu gün Qarabağda atəşkəsin Ermənistan tərəfindən pozulması və başqa təxribatlar ilk növbədə elə erməni xalqının dinc həyatına təhdiddir. Azərbaycan xalqı isə öz ərazi bütövlüyü və sərhəd təhlükəsizliyi çərçivəsində həmişə sülhün tərəfdarıdır.

***Nurəddin Muğanlı***

# Qərbin Azərbaycandakı qəribə müxalifəti

*Əli Kərimli və həmfikirləri ABŞ-ı və Fransanı regiona niyə çağırırlar?*

***Qarabağda otuz üç il davam edən münaqişənin bitdiyi halda Azərbaycanın dağıdıcı müxalifəti "qaşınmayan yerdən qan çıxarmaq" məqsədilə regionda sülhün, sabitliyin pozulmasına, xarici qüvvələrin bölgəyə gəlməsinə çalışır.***



Fransanın ali qanunverici orqanı Qarabağ ermənilərinin müstəqilliyini tanıdığı, otuz üç il müddətində həmişə Ermənistanın yanında olduğunu bildirdiyi halda bu dövlətə necə güvənib onun vasitəçiliyindən istifadə etmək olar? Yaxud "erməni soyqırımı"nı tanıyan, separatçı rejimə maliyyə yardımı edən, Azərbaycana aşkar ögey münasibət bəsləyən, ölkəmizdə insan hüquqlarının pozulduğunu iddia edən ABŞ-a necə inanmaq olar? Halbuki hazırda hər iki ölkədə insan haqq və hüquqları tapdanır, vətəndaşlar polis dəyənəyinə məruz qalır, onların haqlı tələblərinə zopa ilə cavab verilir. Qısaca desək, bu ölkələrin kifayət qədər özəl problemləri var.

Yaddan çıxarmamalıyıq ki, Minsk qrupunun həmsədrləri həmişə ermənipərəst mövqe tutublar. Çünki onlar həm xristian dövlətləridir, həmin ölkələrdə islamofobiya mövcuddur, həm də həmin ölkələrdə siyasətçiləri ələ almaq və ya onların mövqeyinə təsir etmək gücündə olan güclü erməni diasporu var. Onlar müxtəlif bəxşişlərlə senatorları və konqresmenləri əleyhimizə qərarlar qəbul edilməsinə təhrik etməyi bacarırlar. Ona görə də ABŞ və Fransa münaqişəni sonsuzluğa qədər uzatmaq və Azərbaycanı işğalla barışdırmaq istəyirdilər. Keçmiş sovet respublikalarındakı digər separatçı rejimlərdən fərqli olaraq onlar Qarabağ ermənilərinə həmişə rəsmi qaydada maddi yardım ayırıblar. Belə olduğu halda onların proseslərə yenidən aktiv formada qoşulmasını hansı ağılla qəbul etmək olar. Ancaq şəxsi maraqlarını ölkəmizin maraqlarından üstün tutan bir qrup nankor var ki, həmin qrupun üzvləri belə düşünür və "məqsədyönlü" iş aparırlar. Belə təşəbbüs və tələblə çıxış edən həmin qrupun əsas təbliğatçıları oturub ABŞ və Fransada, onlara şərait yaradılıb, TV-lər açılıb. Onlar başqa cür necə danışa bilərlər ki? Fransanın qanunverici orqanı Qarabağ ermənilərinin müstəqilliyini tanıdığı halda bu dövlətə necə güvənib onun vasitəçiliyindən istifadə etmək olar? Yaxud "erməni soyqırımı"nı tanıyan, separatçı rejimə maliyyə yardımı edən ABŞ-a necə inanmaq olar? Ümumiyyətlə, ABŞ-la bağlı deyirlər ki, bu dövlətlə düşmən olmaq təhlükəli, dost olmaq isə ölümcül təhlükəlidir. Ukrayna və Gürcüstan, indi isə Əfqanıstan nümunəsi buna əyani sübutdur.

Əslində Paşinyanla birlikdə ABŞ və Fransanı yenidən proseslərə qoşmaq istəyən Əli Kərimli, Cəmil Həsənli və züytutanları göründükləri qədər kütbeyin deyillər və başa düşürlər ki, regionda nə baş verir, savaşa qədər hansı siyasi-diplomatik iş aparılmışdı, Rusiya niyə savaşa qatılmadı və imkan verdi ki, biz torpaqlarımızın əhəmiyyətli hissəsində suverenliyimizi bərpa edək. Onlar onu da başa düşürlər ki, hökumət heç vaxt bəzi məsələlər barədə xalqla açıq danışa bilməyəcək, çünki düşmənlərimiz də o zaman hər şeyi biləcək və bizə qarşı istifadə edəcəklər. İndi bu siyasətbazlar kənardan verilən təlimatlarla, "rus əsgərləri niyə Qarabağa gəldi?" deyə bağırır, Paşinyanın mövqeyindən çıxış edərək ABŞ və Fransanı bölgəyə köməyə çağırırlar. Amma nə qədər möhkəm haray-həşir salmalarından asılı olmayaraq sadə insanlar bu sualın cavabını bilir, hər şeyi başa düşür, əldə edilmiş Qələbənin möhtəşəmliyini dərk edirlər. İlham Əliyevin probelmin həllinə dair konsepsiyası ortadadır və həyata keçirilməkdədir.

Co dayı ilə müsyo Makronun pullarını çırpışdırmaqda mahir olan dağıdıcı müxalifətin başbilənləri əslində özlərini onların muzdlu nökərlərinə çeviriblər.

***Vəli İlyasov***

# Müxalifət bu məsələdə niyə susur?

"AXCP, Müsavat partiyalarının, "Milli Şura" kimi təşkilatların rəhbərlərinin Jirinovskinin Azərbaycanla bağlı təhqirlərinə, tənqidlərinə münasibət bildirməmələri sözügedən qüvvələrin ürəyində olmasından xəbər verir. Hesab edirlər ki, bu, onların mübarizəsinə əlavə ruh və enerji verir. Bu baxımdan da, buna getmirlər və susurlar". Bunu Təkamül partiyasının sədri Teyyub Qənioğlu "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, müxalifətin iqtidara qarşı mübarizə aparması başadüşüləndir, ancaq bir şeyi unudurlar ki, iqtidara qarşı müxalifətdə olmaq olar, amma ölkəyə və milli mənafeyə qarşı müxalifətdə olmaq düzgün deyil: "Bir sözlə, kimliyindən, mövqeyindən asılı olmayaraq milli mənafedən çıxış edən hər bir siyasətçi dövlət və millət haqqında edilən tənqidlərə və təhqirlərə anında cavab verməlidir. Əgər bunu etmirsə, deməli, onların ürəyincədir. Ümumiyyətlə, bu məsələdə sözügedən qüvvələrin susqunluq nümayiş etməsi düzgün hal deyil. Müxalifəti maraqlandıran ancaq özlərinin şəxsi ambisiyalarıdır. Düzdür, Jirinovski Azərbaycanla bağlı xoşagəlməz fikirləri səsləndirib, o, heyvərənin biridir, elə rusiyalıların özləri də ona Rusiyanın üz qarası deyirlər".

***Gülyana***

# "Ermənistan işğalçılıq siyasətindən, təxribatlarından geri çəkilməyib"

***"Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəmizə yeni təyin olunmuş BMT-nin yeni rezident əlaqələndiricisini qəbul edərkən həm də ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyindən danışdı". Bu sözləri SİA-ya açıqlamasında deputat Elşad Mirbəşiroğlu deyib.***

Onun sözlərinə görə, həqiqətən də ATƏT-in Minsk qrupu 1992-ci ildə məhz Azərbaycan Ermənistan münaqişəsinin dinc vasitələrlə tənzimləmələri üçün yaradıldı: "Lakin ötən 28 il ərzində ATƏT-in Minsk qrupu münaqişənin tənzimlənməsi istiqamətində nəticəyə yönəldilmiş bir addım ata bilmədi. Yaradıldığı gündən bu yana ATƏT-in Minsk qrupu münaqişə vəziyyətinə obyektiv şəkildə yanaşmadı. Minsk qrupu tərəfindən bir dəfə də olsun Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan öz adı ilə işğalçı dövlət adlandırılmadı. Məsələ ilə bağlı cənab Prezident İlham Əliyev vurğuladı ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri həm də BMT-nin daimi üzvləridirlər. Bildiyiniz kimi, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının intensiv işğal olunduğu bir vəziyyətdə 4 qətnamə qəbul olundu və həmin qətnamələrdə Ermənistan silahlı birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması tələb olunurdu. Lakin bu qətnamələr kağız üzərində qaldı və bu qətnamələrin qəbul olunmasının lehinə səs verən ölkələr içərisində həm də ATƏT-in Minsk qrupunun həmsədr ölkələri də var idi. Yəni onlar qətnamələrin icrası istiqamətində təsirli addım atmaq imkanları malik olduğu halda bunu etmədilər. Bu da təbii ki, məsələyə qeyri-obyektiv, ikili standartlardan yanaşmanın təzahürü idi. Ayrıca olaraq bir məqamı da vurğulamaq istəyirəm ki, 2008-ci ilin mart ayında BMT Baş Assambleyasında Azərbaycanın işğal altında olan ərazilərində vəziyyətə dair qətnamə müzakirə olunurdu və həmin qətnamənin lehinə səs verən ölkələrin içərisində Minsk qrupunun həmsədr ölkələri də var idi. Təbii ki, həmin qətnamə



qəbul olundu və bu, Azərbaycanın tarixi diplomatik qələbəsi idi. O qətnamədə göstərilirdi ki, Ermənistan silahlı birləşmələri Azərbaycanın işğal altında olan torpaqlarını qeyri-şərtsiz, hər hansı bir şərt irəli sürmədən azad etməlidirlər. Lakin təəssüflə qeyd etmək lazımdır ki, Minsk qrupunun həmsədr ölkələri və BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ABŞ, Fransa və Rusiya bu qətnamələrin əleyhinə səs verdilər. Bu da bir daha göstərir ki, Minsk qrupu münaqişənin dinc vasitələrlə tənzimlənməsi istiqamətində təsirli addımlar atmaq fikirindən uzaqdır. Minsk qrupunun həyata keçirdiyi fəaliyyət yalnız dekorativ xarakter daşıyırdı. Məhz cənab Prezident bunları nəzərə alaraq Minsk qrupunun 28 il ərzində çox imkanları əldən verdiyini bildirdi. Ölkə Prezidenti həmçinin bildirdi ki, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi bu 4 qətnamədə Azərbaycan öz gücü hesabına icra etdi. Cənab Prezident həmçinin vurğuladı ki, Azərbaycan bu addımları atarkən beynəlxalq hüquq normalarına, BMT nizamnaməsinə istinad edib, yəni BMT nizamnaməsinin 51-ci maddəsinə müvafiq olaraq Azərbaycan özünü müdafiə hüququndan istifadə edib. Azərbaycanın hərbi yolla öz torpaqlarını işğaldan azad etməyə vadar edən elə ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi oldu. Biz münaqişənin dinc vasitələrlə tənzimlənməsinə hər zaman hazır olmuşuq. Bu istiqamətdə üzərimizə düşən bütün addımları atmışıq. Lakin Ermənistan işğalçılıq siyasətindən, təxribatlarından geri çəkilməyib və Minsk qrupunun həmsədr ölkələri də təcavüzkar Ermənistana qarşı heç bir zaman təzyiq göstərməyiblər. Bütün bunlar göstərir ki, ATƏT-in Minsk qrupunun fəaliyyəti münaqişənin tənzimlənməsinə deyil, münaqişə vəziyyətinin saxlanılmasına xidmət edir. Belə olan halda Azərbaycan öz hərbi və milli bərabərliyin gücü ilə torpaqlarını işğaldan azad etdi və tarixi ədaləti bərpa etdi".

***Ziya Hikmətoğlu***

# Toyda kimə, niyə və necə toy tutulur?

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



Toylarımızda ifrat süfrə menyusu insanların bəhsə-bəhs yerinə, öz imkanlarını başqalarına nümayiş etdirmə məkanına çevrilib Xalqımızın qədim adət-ənənələri arasında toylar özünəməxsus yer tutur. Milli toylarımızın özüməxsus gözəllikləri, zəngin ənənələri, mənəvi keyfiyyətləri var. Bunlardan biri də yemək-içmək süfrəsidir. Bu dəfəki mövzumuz da elə toylarımızdakı yemək mədəniyyəti ilə bağlıdır.

## Elimizin toy kimi bir adəti vardı...

Qədim toylarımızda da qonaqlara müxtəlif növ milli yeməklər təklif olunub. Lakin süfrə heç də toyun əsas atributu sayılmayıb. Hazırda isə toylarda əsas məsələ yemək-içməkdir. Süfrələrin üstündə lap nağıllarda deyildiyi kimi quş südü, can dərmanı - hər şey var. Məşhur filmdə deyildiyi kimi, süfrəni elə doldururlar ki, barmaq basmağa yer qalmır...

Biz inteqrasiya olmağa meyilli xalqıq. Toylarımızda hər şeyi artıq çoxdan avropalaşdırmışıq. Amma nədənsə yemək məsələsində bu, alınmır. Bu yemək ki var - bu, bizim yaralı yerimizdir.

Çox maraqlıdır, ictimai müzakirələrdə hamı Avropa ölkələrini, Rusiyanı, Amerikanı misal gətirir, ”onlar bizdən ağıllıdır, toyda çox sadə süfrə açırlar, bizim kimi 30-40 cür yemək vermirlər” deyir, lakin həmin adamların təşkil etdikləri toya gedəndə görürsən ki, özü başqalarından daha böyük həngamə çıxarıb.

Hər kəs bir-birinin bəhsinə girib daha ”ağır” stol açmaq istəyir. Masalarda planetimizin Antraktida istisna olmaqla bütün materiklərindən gətirilmiş saysız-hesabsız nemətlər düzülür. Bununla fəxr edən toy sahibi heç düşünmür ki, bu həngaməni öz gücünə yox, qonaqların puluna həyata keçirir.

Yəni, masanın qiyməti haqda qabaqcadan informasiya sızdırılır və qonaqlar da məcbur olub həmin qiymətdən bir az da artıq pul yazdırırlar ki, bəylə-gəlinə bir kömək olsun. Lakin deyir, sən saydığını say, gör şadlıq evinin sahibi, qadın salonunun sahibi, musiqi qrupu, video və foto operatorlar... nə sayır.

## Saman sənin deyil, samanlıq ki sənindir



Daha bir problem isə ondan ibarətdir ki, ”stolun üstünə nə düzülübdürsə, hamısından yemək lazımdır” prinsipi ilə yaşayanlar çoxdur. Toya gələrkən bəziləri sanki birinci dəfədir yemək görürlərmiş kimi, o qədər yeyirlər ki, nəfəs ala bilmirlər. Axı atalar yaxşı deyib: ”Saman sənin deyil, samanlıq ki sənindir”.

Təəssüf ki, bunu anlayanlara az rast gəlirik- masanın üstünə çox növdə yemək düzülübsə, bu, o demək deyil ki, hər kəs bunların hamısından yeməlidir. Bu ona görədir ki, kim daha çox nəyi sevirsə ondan yesin və ya kiməsə həkim hansısa qidaları qadağan edibsə, o yeməyə bir şey tapa bilsin.

Şadlıq sarayının bahalı və ya ucuz olmasından asılı olmayaraq orda təqdim olunan yeməklərdə fərq olmur. Hətta bəzən bahalı restoranlarda təklif olunan yeməklər daha keyfiyyətsiz olur. Əgər toya qonaq gələn adam sağlamlığına diqqət edən, az-çox savadı olan, əlinə keçənlə qidalanmayan biridirsə, o zaman mütləq toydan ac gedəcək.

Əksər restoranlarda 5-10 çeşiddə yemək, 30-40 çeşiddə çərəz və salat təklif olunur. Burada bir neçə paket olur- toy sahibinin yeməkləri dəyişdirmək, menyudan çıxarmaq hüququ yoxdur, lap çıxartsa da pulunu ödəməlidir. Həm də minimum menyu və yer sayı var ki ondan aşağı olmaz.





## “Qida növü çoxaldıqca risk mənbəyi də artır”

Qidalanma üzrə mütəxəssislərin fikrincə, hər bir insan süfrəyə əyləşəndə yalnız 1-2 yemək növü ilə qidalanmalıdır. İsti yeməklər, meyvə, müxtəlif tərkibli salatlar, çərəzlər, içkilər hamısı eyni vaxtda qəbul olunursa, bu, insan sağlamlığına ciddi fəsad verir.

Qida texnoloqu Ağa Salamovun sözlərinə görə, toylarda təklif olunan yeməyin sağlam və təbii qida olub-olmamasına mütləq diqqət olunmalıdır.

Toylarda baş alıb gedən israfçılığın tərəfdarı olmadığını bildirən ekspert deyir ki, əgər çox qida hazırlanırsa, çoxlu da işçi qüvvəsi tələb olunur: ”Qida çoxaldıqca risk mənbəyi də artır. Hazırlanan qidalar hamısı termik emaldan keçməlidir. Emaldan keçməyənlər soyuducuda saxlanmalıdır”.

Texnoloq bildirir ki, restoranlarda həddən artıq çox növdə salatlar hazırlanır. Onun sözlərinə görə, toydan sonra artıq qalan qidalar sabahı günü başqa bir toyda təqdim olunur: ”Botulizm, bağırsaq çöpləri xəstəlikləri də belə qidalardan yaranır. Toylarda təqdim olunan yeməklərin çoxu Azərbaycan mətbəxinə aid olmayan salatlar, yeməklərdir. Yeməklərin də çoxu stolların üstündə qalır. Bu israfçılığın restoran sahibindən başqa heç kimə xeyri yoxdur”.

## Müasir toylar pul yığmağa hesablanır

Psixoloq Nail Allahverdiyev hesab edir ki, bizim toylar indi biznes maraqları daşıyır, el adətləri ilə edilən toylar yox olub: ”Hesab edirəm ki, toyun təşkilini, kimlərin qonaq çağırılmasını, menyunu və məkanı bəylə-gəlin özü seçməlidir. Toyda tamadaya ehtiyac olmamalıdır, yeməklər israf edilməməlidir”.

Psixoloqun fikrincə, hazırda Azərbaycanda elə bir müasir toy modeli yaranıb ki, nə milli toylara, nə də başqa xalqların toylarına bənzəmir: ”Bu ortaq bir model də deyil, sadəcə həddən artıq baş ağrısı verən, süfrənin bolluğu ilə yeməklərin keyfiyyətsizliyi təzad təşkil edən, təm-təraq və nümayişkəranəliyə və ən əsas pul yığmağa hesablanan müasir Azərbaycan toyunun bir çox cəhətləri ilə islahata və hətta ixtisara ehtiyacı var”.

N.Allahverdiyevun qənaətinə görə, şadlıq saraylarında neqativ hallar var, onlar bir çox məsələləri diktə edirlər, lakin bütövlükdə sifarişi toy sahibi verir: ”O özü müəyyən etməlidir ki, hansı yeməkləri verəcək, neçə növ olacaq. Amma təəssüf ki, bizim insanlar bir-birilə bəhsə girirlər. Bu şəkildə toy keçirmək olmaz. Bəhs etməyi kənara qoya bilsək, problemi həll etmək olar”.

## Toya yazılan pullar kimin cibinə gedir?

İş o yerə gəlib ki, indi toya çağırılan adam sevinmək əvəzinə məyus olur. Orta statistik vətəndaşımız aylıq maaşının əhəmiyyətli bir hissəsindən keçməlidir. Bəs həmin ay necə dolanacaq? Özü də bu işgəncə kiminsə lovğalanması üçün baş verir.

Sosioloq Elçin Bayramlı deyir ki, toya gələn qonaqların toya yazıldığı məbləğ, əslində, yeni evlənənlərə çatmalıdır: ”Bu pulla yeni ailə quranlar heç olmasa öz evləri üçün çatışmayan nələrisə ala bilər. Amma bu pullar şadlıq sarayının sahibinə çatır. Hətta bəzən, toya yazılmış pullar heç şadlıq sarayının xərcini ödəməyə belə çatmır. Və toy sahibi borca düşür. Hətta elə hallar olub ki, şadlıq sarayının pulunu ödəyə bilmədiyi üçün bəy girov saxlanılıb.

Qısası nə toy edən, nə toya gələn həmin toydan şadlıq sarayının sahibi qədər razı qala bilmir. ”Qonşudan dala qalma” prinsipi ilə yaşayan adamların sayəsində şadlıq evlərinin sahibləri küllü miqdarda pul qazanır.

Əslində, toya pul yazılmaq ondan ötrüdür ki, yeni evlənənlərə hər kəs öz köməyini göstərsin, onlar da həmin pulla özlərinə ev qursunlar. Keçmişdə toylarda bəylə-gəlinə hədiyyə gətirərdilər. Yaxın qohumlar və qonşular isə toyun təşkilinə də kömək edərdilər.

Olmaz ki, onun əvəzinə xərclənən vəsaiti daha məntiqli məsələlərə yönəldək? Məsələn, toyda 2-3 cür yemək verib, qalan pulları yeni evlənənləri bal ayını keçirmək üçün xaricə gəzməyə yollayaq. Yaxud da onların hansısa problemlərini həll etməsi üçün özlərinə saxlayaq? Bunun üçün məncə ictimai qınaq və nəzarət mexanizmi fikirləşməyin əsl zamanıdır”.

**_Lalə Mehralı_**

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

26 avqust

Son səhifə

# "Fənərbaxça"ya sürpriz hücumçu




"Fənərbaxça" hücumçu axtarışları davam edir. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, komandadakı hücumçulardan Serdar Dursunun zədələnməsi və Mbana Samatanın təsirsiz performansı nəticəsində klub heyətini ulduz hücumçu ilə gücləndirmək istəyir. Bu çərçivədə uzun müddətdir çalışan rəhbərlik, venesuelalı hücumçu Salomon Rondon üçün hərəkətə keçib. "Fənərbaxça"da transfer pəncərəsinin bağlanmasına az müddət qala hücumçu transferidə azalır. Klubun gündəmində olan Alexander Sörloth, İspaniyanın "Real Soseydad" klubu ilə müqavilə imzaladıqdan sonra, Fənərbaxça yeni hücumçu axtarışına çıxıb. Fənərbaxça, son olaraq Çin komandası "Dalian Professional" oynayan və müqaviləsi dekabrın sonunda başa çatacaq Rondon üçün həm meneceri, həm də klubu ilə əlaqə saxlayıb. Danışıqların müsbət keçdiyi qeyd edilib. 31 yaşlı venesuelalı hücumçunun bazar dəyəri təxminən 5 milyon avrodur. Rusiyada "Zenit" və Premyer Liqada "West Bromwich" və "Newcastle United"də oynayan Rondon üçün 2019 -cu ildə Çin klubu 18,3 milyon avro ödəmişdi. Venesuela millisində 63 dəfə forma geyinən Rondon bu matçlarda 31 qol vurub.

***Ziya Hikmətoğlu***

# "Qalatasaray" 22 yaşlı futbolçu transfer etdi!




"Qalatasaray" komandası heyətini yeni futbolçu ilə gücləndirib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, sarı-qırmızılı komanda Ruminiyanın "Styaua Buxarest" komandasının yarımmüdafiəçisi Olimpiu Morutanı transfer edib. 22 yaşlı futbolçu ilə tezliklə rəsmi müqavilə imzalanacaq. Ruminiyanın 21 yaşadək futbolçulardan ibarət millisinin formasını geyinən Morutan, daha əvvəl ölkəsində "Universitatya Kluj" və "Botoşani" klublarında da çıxış edib.

# Üç yaşında dünyanın ən istedadlı adamı oldu



ABŞ -da bir körpə, IQ testlərindən ən yüksək bal toplayan insanların qoşula biləcəyi "Mensa" klubunun üzvü olub. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, ABŞ-ın Kaliforniya əyalətində yaşayan və gəzməyə yeni başlayan 3 yaşlı Kaşe Quest tarixə düşüb. IQ səviyyəsi 146 olan Kashe Quest, dövri cədvəldəki bütün elementləri əzbər bilir, ispan dilini öyrənir və 3 yaşında olmasına baxmayaraq tennis oynayır. Bu xüsusiyyət sayəsində Quest, üzvlüyü yalnız IQ testlərində ən yüksək bal toplayanlarla məhdudlaşan dünyanın ən gənc istedadlı üzvü olub. Kashenin atası Devon Guest, "Həmişə ətrafımızı araşdırmaq və "niyə" sualını verməklə meylimizi göstərdi. Bir şey bilmirsə, bunun nə olduğunu və necə işlədiyini bilmək istəyir və öyrənəndə tətbiq edir" - dedi.

***Ziya Hikmətoğlu***

# Oturaq həyat tərzi keçirənlərin qida rasionunda meyvə və tərəvəzin olması vacibdir



Fiziki və aktivlik düzgün qidalanma sağlam həyat tərzinin vacib şərtlərindəndir. Hərəkətsiz həyat tərzi və fiziki aktivliyin az olması ilə yanaşı, qeyri-sağlam qidalanma bir çox xəstəliklərin yaranması üçün risk faktorudur. Fiziki cəhətdən fəal həyat tərzi sürməyənlər qida rasionuna xüsusilə diqqət yetirməlidirlər. Bu barədə Qida Təhlükəsizliyi Agentliyinin maarifləndirici materialında bəhs olunur.

Qidalanmanın balanslı təşkili çox vacibdir. Belə ki, az yağlı, zülal və tam taxıllı məhsullarla zəngin qida rasionu gündəlik zəruri enerji miqdarının alınması üçün kifayətdir.

Oturaq həyat tərzi keçirən, xüsusilə ofis şəraitində işləyənlərin qida rasionunda meyvə və tərəvəzlər olduqca vacibdir. Həmin qidalar həm yüksək miqdarda vitamin və mineral ehtiva edir, həm də az kalorilidir. Həmçinin əksər meyvə və tərəvəzlər toxluq hissi verən liflərlə zəngindir. Qeyd edək ki, meyvə-tərəvəzin 150-300 qramı bir porsiya hesab olunur. Yetkin bir şəxsin gün ərzində 2-4 porsiya meyvə, 3-5 porsiya tərəvəz istehlakı tövsiyə edilir. Orqanizmin ehtiyac duyduğu proteini isə toyuq, hinduşka əti, dəniz məhsulları və yağsız mal ətindən əldə etmək mümkündür. Qril və buğlama ət məhsullarını bişirməyin ən sağlam üsuludur. Dəniz məhsulları proteinlə yanaşı, əsas yağ turşularını da ehtiva edir və bu, qandakı yüksək sıxlıqlı lipoproteinləri artıraraq xolesterol səviyyəsini azaltmağa kömək edir. Həmçinin karbohidratlara nisbətən zülallar sayəsində orqanizmdə uzun müddət toxluq hissi yaranır.

Qida rasionuna həzmi yaxşılaşdıran yağsız və ya az yağlı qatıq, eləcə də digər süd və süd məhsulları əlavə etmək də lazımi vitamin və mineralları almaq üçün düzgün seçimdir. Gündəlik 2-3 porsiya süd və süd məhsullarının istehlakı olduqca faydalıdır. Qida rasionunda süd və ya qatığın payı 230-250 qram, pendir 50-60 qram və s. təşkil etməlidir. Qidalanmada karbohidrat və şəkər qəbulunu isə azaltmaq məsləhətdir. Xüsusilə də ağ undan hazırlanmış çörək, makaron, düyü, tort, peçenye və s. kimi məhsulların istehlakından çəkinmək lazımdır. Qeyd edək ki, gündəlik qida rasionunda taxıl məhsullarının payı fərdin yaşı, iş şəraiti və enerji ehtiyacına müvafiq olaraq dəyişir.

Su insan orqanizmində əhəmiyyətli rol oynayır. Belə ki, su metabolizm prosesində, bədən istiliyinin tənzimlənməsində, normal osmotik təzyiqin və elektrolit balansın qorunmasında iştirak edir. Həmçinin su qanda, sümükdə və beyində optimal nəm səviyyəsini saxlamağa kömək edir. Ümumdünya Səhiyyə Təşkilatı normal halda 60 kiloqram çəkiyə malik olanlar üçün gündə 2 litr, 10 kiloqram çəkiyə malik uşaqlar üçün isə 1 litr su istehlakını tövsiyə edir. ABŞ Tibb İnstitutunun əməkdaşları isə məsləhət görürlər ki, hamilə və laktasiya dövründə olan qadınlar əlavə gündə 0.3 litr və 1.1 litr su istehlak etməlidirlər.

Gündəlik ümumi enerji tələbatı oturaq həyat tərzi sürən qadınlar üçün 2100 kkal, kişilər üçün isə 2500 kkaldır.

# Ağacları kəsən şəxs cəzalandırılıb



Qazax şəhəri, Əliağa Şıxlinski küçəsində ağacların kəsilməsi ilə bağlı Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinə daxil olan şikayət araşdırılıb və fakt təsdiqini tapıb. Xidmət rəsmisi Ramal Bağırov SİA-ya bildirib ki, araşdırma zamanı ərazidəki ağacların vətəndaş Ceyhun Osmanov tərəfindən kəsildiyi müəyyən edilib. "Faktla bağlı qanun pozucusu barəsində akt, protokol tərtib olunub və o, 2800 manat məbləğində cərimələnib".

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600